V.Oyken zənn edirdi ki, rəqabətin qorunmasını ölkə özü təmin etməlidir. Onun fikirlərinə əsasən dövlət sosial ziddiyyətlərin həll edilməsi, sahibkarlığa yardım, təbəqələşmənin aşağı enməsi, yaşayışın yüksəldilməsini kimi məsələləri həll etməlidir

Keynsə görə bazar iqtisadiyyatı dövlət təsiri olmamış davam edə bilməz. Sözügedən nəzəriyyə dövlətin aktiv müdaxiləsini əsas tutur.

Böyük böhran illərində (1929-1933) aşkar olundu ki: bazar sistemi kənardan müdaxilə olmadan bu durğunluqdan çıxma qüvvəsi yoxdür. Həmin  zaman dövlət müdaxiləsi şərt idi. Beləliklə bunlar Keyns təliminin yaranmasına gətirib çıxartdı və tənzimlənən bazarın əsasını qoydu. Keynsə görə dövlət bu tədbirləri görməlidir:

- Əmtəə xidmətlərinin istehsalını artırmaq;
- investisiya qoyuluşunu stimullaşdırmaq;
- təklifi artırmaq;
- şəxsi istehlakın artırılması;
- vergi yükünün səviyyəsinin artırılması;
- hökümət xərclərinin artırılması;
- büdcə-vergi siyasətinə üstünlük verilməsi və s.

Keynsçilikdə tam məşğulluq vacib məqsəd kimi çıxış edirdi. Keynsin tərəfdarları bazar iqtisadiyyatının özünü tənzimləyici bir sistem olmadığını və dövlətin iqtisadiyyatda mühüm rol oynadığını düşünsələr də, klassik və neoklasik məktəbdə əksinədir.

Monetarislər iqtisadiyyata dövlət təsirini  qəbul etsələr  də, onun müəyyən çərçivələrdə olmasını və yalnız pul parametrləri ilə reallaşmasını qeyd edirdilər. Beləliklə Keynsçilik nəzəriyyəsindən fərqli olaraq monetaristlər tənzimlənmənin dolayı növünü əsas tutur. Monetaristlərə görə bazar təsərrüfatı yalnız daxili tendensiyaların gücü hesabına sabitliyə çatması mümkündür. Sabitliyin pozulması halı olarsa bu xarici müdaxilənin səbəbindən yaranır.

“Təklif iqtisadiyatı” nəzəriyyəsinə görə vergilərin artırılması qiymət və xərclərin artmasına, bu isə inflyasiyanın artmasında başlıca səbəb olacaqdır. Buna çarə kimi isə vergilərin azaldılması, investisiyaların stimullaşdırılmasını irəli sürür. Onlara görə gəlir, əmanətlərin artımı yığım və investisiyaların artımına gətirib çıxardır. (N.Q.Menkyu, 2009)

Dövlətin iqtisadiyyatımıza göstərdiyi müdaxiləsinin həddi, formaları, artımı və azalması problemi aktual olaraq qalmaqla yanaşı təsirin gücləndirilməsinin zəruriliyi haqda təkliflərə çox rast gəlinir. Bu əsasən aşağıdakı şərtlərlə bağlıdır:

Dövlət iqtisadiyyatda daim mövcuddur və onun tam itməsi əsas hesab edilmir; dövlət funksiyalarının həcm və vasitələri. Bu funksiyalara aiddir:

1) Qanunvericiliyin formalaşdırılması

2) Müdafiə və təhlükəsizlik, kənardan gələn təhlükələrdən müdafiə

3) Sabitliyin təmini

4) İnkişaf üçün faydalı institutların formalaşması

5) Sosial zəif təbəqələrin mudafiəsi və onların sosial təminatı

6) Təbiətin qorunması

7) Bazar iflaslarının qabaqlanması

8) Dövlətin birbaşa nəzarətinin; ekoloji təhlükəsizliyinin təmini.

İnstitutsionalistlər dövlətin təhsil, səhiyyə, ekologiyaya diqqətini zəruri hesab edirdilər.

Son dövrlərdə təcrübədən məlum olur ki, əksər ölkələrdə müxtəlif tipli modellərin bir-birilə yaxınlaşmaya meyli güclənmişdir. Bu isə qloballaşma, kapital axınlarının intensivləşməsi, dövlətlərin asılılığının artması ilə əlaqəlidir.

Tənzimləmə son dərəcə vacibdir, çünki tənzimləmə təkcə iqtisadiyyatdakı makro səviyyədə potensial təsirlərə malik deyil, həm də şirkət və fərdlərin mikro səviyyəsində potensial təsirlərə malikdir. Tənzimləmə ətraf mühitin dəyişməsinin nəticələri və ya bəzi hallarda reaksiya göstərməklə proaktif şəkildə inkişaf edə bilər. Məsələn, bazarda texnoloji inkişaflar nəticəsində meydana çıxan dəyişikliklər, yeni ünsiyyət vasitəsi və kompüter tətbiqləri müxtəlif tənzimləməyə, proaktiv və

reaksiyaya səbəb olmuşdur. Tənzimləmə, maliyyə böhranı və keçmişdə baş vermiş istənməyən davranışlara və ya hərəkətlərə cavab olaraq inkişaf etmişdir.

Tənzimləmə zəruridir, çünki bazar həlləri hər vəziyyət üçün kifayət deyil. Maliyyə tənzimləmə cəbhəsində əhəmiyyətli bir problem - sistemik risklə (maliyyə sisteminin uğursuzluq riski) və maliyyə qurumlarının risklərin götürülməsinin nəticələri ilə necə məşğul olmaqdır. Digər cəbhələrdə əmək tənzimlənməsi, ətraf mühitin tənzimlənməsi və elektron gizlilik kimi məsələlər daha da artır. Tənzimləmə strukturunda dəyişikliklər və tənzimləyici qeyri-müəyyənlik biznes qərarlarına əhəmiyyətli təsir göstərə bilər. Maliyyə sənayesindəki peşəkarlar qarşısında duran əhəmiyyətli çətinliklərdən biri, tənzimləyici mühitdə və xüsusi qaydalarda potensial dəyişikliklərin nəticələrinin öhdəsindən gəlmək və anlamaqdır.

Dövlətin iqtisadiyatı tənzimləmə mexanizmi dövlət bölməsinin miqyasına (digər bölmələrlə olan nisbətinə) təsir edir. Tənzimləmə mexanizmləri müxtəlif olub bir-birindən miqyasına, formasına, metodlarına görə çox fərqlənirlər. Bu modellərdən hansının səmərəli olması şərait və amilə uyğunluqdan asılıdır. O, ölkənin miqyası, tarixi, ənənəsi və s amilləri əks olunur.

Dövlətin tənzimlənməsində səmərəliliyə sahib olmaq üçün məqsədlər və seçilən vasitələr uyğun olmalıdır. Tənzimlənmənin səmərəliliyini aşağıdakı vasitələrlə qiymətləndirmək olar:

- Proqnozlaşdırılan və nail olunan göstəricilərin müqayisə olunması
- Oxşar milli iqtisadiyyatlar əsas götürülərək göstəricilərin müqayisə olunması
- Ölkənin təhlükəsizliyinin faktiki və hədd göstəricilərinin əlaqələndirilməsi.

Səmərəliliyin müəyyənləşməsi üçün dövlət tənzimlənməsi mexanizmlərini qruplaşdırsaq bunlar ortaya çıxır:

- tənzimləmə obyektləri;
- tənzimləmə formaları;
- tənzimləmə metodları;
- tənzimləmə resursları alətləri və s.

Tənzimləmə ehtiyatlarına dövlətin maliyyə ehtiyatlarını, iqtisadiyyatın dövlət bölməsi, mərkəzi bankın nəzarətindəki pul kütləsi, qanunvericilik, informasiya

istifadəsi və s. aid etmək olar. Bazar iqtisadiyyatnın bir çox müsbət cəhətlərinə baxmayaraq, məhs bazar iqtisadiyyatı cəmiyyətdə məsələlərin həll olunmasına acizdir və kənardan bir müdaxiləyə ehtiyac duyur. Xüsusən də gəlirlərin ədalətli bölgüsü, azad rəqabət şəraitinin təminini, tam məşğulluğun əldə edilməsi, və s. hallarda bazar iqtisadiyyatı effektiv nəticə vermir. Əsas məsələ isə bazarın tənzimlənməsidir. Bu isə əmtəə-pul məsələlərinin qaydaya salınmasından başlanmalıdır. Bu zaman isə cəmiyyətin maraq və tələbləri uzlaşdırılmalıdır.

Bazarın təsirini araşdırarkən əsas götürülməlidir ki, o dəqiq struktura malikdir. O həm öz-özünə yaranma, həm də təşkilatçılıq qabiliyyətinə malikdir. Bütün götürüləbilən şablonlarda iqtisadi siyasəti qanunvericilik əsasında dövlət idarəetməsinin reallaşdırdığı məqsəd və nail olma tədbirləri verilir. Geniş mənalı olduğundan fərqli iqtisadi siyasətlərdə düzgün formada konkretləşməsi vacib hesab ediləndir. Başqa yöndən siyasət bəhanəsi ilə hakimiyyətin qorunması və saxlanması üzrə çıxış edir. Nadir halda siyasətin elmi, siyasi, iqtisadi yöndən əsaslandırılaraq alternativlərdən yaxşısının götürülməsi, qeyri-rasional olan, subyektiv yanaşmaya əsaslanaraq hakimiyyəti saxlamaq, şəxsi keyfiyyətləri hesab olunan səviyyə, bilik və təcrübəsinin, ölkədəki güclərin təsiri ilə yaranması iqtisadi siyasətin nəzəri, metodoloji əsaslarının təhlil olunmasını zəruri edir.

Siyasətin fərqli cəhəti odurki, çox varianta məxsus olmalı və aşkar olmaqla bərabər reala dönüşməsində qəbul edilən fikirlər xüsusi sistemlərin layiqincə həyata keçiriləcəyi funksiyalardan ətraflı, eyni zamanda onlardan asılı vəziyyətdə olmamalı, amma funksiyalarla əlaqələndirilməlidir. Sözgedən siyasət, resursların yardımı ilə tənzimlənməsində istifadə edilən tədbirlər toplusunun konsepsiyasını əks etdirir.

İqtisadiyyatın və siyasətin qarşılıqlı əlaqəsinin izahına institusionalist və ordoliberallar tərəfindən müxtəlif şəkildə baxmaq olar. Məs., amerikan institusional konsepsiyalarından biri ictimai seçim nəzəriyyəsini özündə ifadə edir. Və buda səsvermə prosesinin təhlilindən ibarət olur.

Ordoliberal almaniya məktəbin davamçıları bu seçim sistemini yox, dövlət məsələlərinin həllində siyasətin, iqtisadiyyatın qarşılıqlı şəkildə əlaqəsini təhlil edir.

İşsizliklə inflyasiya arasındakı baş verən ziddiyyətin ətraflı təhlili onu izah edir ki, məşğulluq səviyyəsi yüksəkdirsə, onun gəlirlərinin məcmu səviyyəsi çox olur. Öz növbəsində, tələbi artırır, nəticəsində qiymətlər qalxır.

Xidmətlərin istehsalı artır, iqtisadi artım dövründə əmək haqqının dərəcəsi bütövlükdə istehsalın artımına üstün gələ bilər. İnflyasiyanın xeyli güclənməsi böhran formalaşdıra bilər. Həmçinin məşğulluğun xeyli aşağı enməsinə gətirib çıxarır. İki alternativ məqsəddən hansı birini üstün tutmaq seçimini edən zaman səmərə prinspinə əsaslanır: öncəliklə, məsələnin həll olunması lazımdır ki, əks halda həyata keçirilməməsi ölkənin iqtisadiyyatına ziyanlıdır.

İqtisadiyyatda 2 aparıcı məsələni yoluna qoymaq növbələşmə formasında baş verir (işsizlik və inflyasiya). Təcrübə onu izah edir ki, problemin həllində müvəffəqiyyət qazanarkən, başqa problemin dərinləşməsi qaçılmazdır. Bu zaman siyasətdə məşğulluğun max, inflyasiyanın isə tam əksinə minimum olmasına sahib olmalıdırr. Məşğulluğun dərəcəsini artırmaq üçün büdcədən vəsait ayırır azalmasına zəmin yaradır. Dövlət qısamüddətli dövrdə monetar və fiskal məqsədlər arasında güzəştlər edərək yararlanır.

Tədiyyə balansındakı saldonun (ixrac və idxal arasında balansın) 0 olmasına səbəb olmaqdır. Buna pul-kredit, valyuta siyasətlərinin yardımı nəticəsində nail olunur, valyuta məzənnəsi bank faizini dəyişir, eyni zamanda ixrac və idxalın səviyyəsinə təsir göstərir, istehsalçıların öz marağlarının gözlənilməsi əsas şərt olaraq qoyulmasa iqtisadi artımda, yəni istehsalın dərc və əmək haqqının dərəcəsi başqa ölkələrə nəzərən aşağı düşməsində, eyni zamanda inflyasiya ilə əlaqəli maniələr meydana çıxa bilər. Burada pul-kredit, valyuta, vergi siyasətlərini reallaşdıran vaxt məqsədlər arasında güzəştlər gözlənilir. Siyasətin ən vacib məqsədlərinə endogen (məşğulluq səviyyəsi, inflyasiya, istehlak, investisiya, valyuta məzənnəsi, faiz dərəcəsi) və ekzogen (xarici təsirli amillər, xərcləri, pul kütləsi) təsirlər özünü göstərir. Bu vaxt iqtisadi siyasəti hazırlayan, eyni zamanda reallaşdıran orqanların qərarlarını, digər vəziyyətdə hansı formada davranmalarını öyrənən iqtisadi siyasətləri bir birindən fərqləndirirlər. (M.A.Əhmədov, A.C.Hüseyn, 2010)

# II FƏSİL. ÖLKƏMIZDƏ MİLLİ İQTİSADI MARAQLARIN TƏMİN EDİLMƏSİNİN VƏZIYYƏTI VƏ İSTIQAMƏTLƏRI

## 2.1. Azərbaycanın iqtisadi inkişafının modelləri, milli iqtisadi marağın əsas istiqamətləri

Respublikamızda milli iqtisadi marağların təmin edilməsi əsas olub və bu yolda o müxtəlif inkişaf yolları keçmişdir. Beləliklə bu yolda onun inkişafinın modeli formalaşmışdır. Sözügedən modelinə nəzər salarkən onu müxtəlif dövrlərə bölmək lazımdır. Bu model 3 dövr üzrə fərqləndirilir və onlara ayrılıqda nəzər yetirək.

İlk dövr milli iqtisadiyyatımızın formalaşmasının ilk mərhələsidir. Bu dövr iqtisadi ədəbiyyatlarda keçid dövrü kimi dəyərləndirilir. Bu dövr əsasən 1993-2003-cu illəri əhatə etmişdir.

Birinci mərhələdə istehsal səviyyəsində sürətli azalma, təsərrüfat və maliyyə əlaqələrinin pozulması, qiymət və inflyasiya payının artması, gəlirlərin azalması, işsizlərin sayının durmadan artması və s. kimi hallar yaranmışdır. Ulu Öndərin rəhbərliyinin ilk dövründə inanılmaz iqtisadiyönümlü yüksəlişə nail olundu. Bu dövrdə Azərbaycan sürətli formada inkişaf edir, yenilənir, dəyişirdi. İnkişaf nəticəsində istehsal böyüməklə yanaşı, yeni və səmərəli istehsallar yaradılırdı. Kənd təsərrüfatında taxılçılıq və maldarlıq yerini, daha səmərəli - üzümçülük, tərəvəzçilik və pambıqçılığa verirdi. Beləliklə iqtisadiyyat böyüyür, həmçinin yeni iqtisadiyyat formalaşırdı. Bu isə əsaslı islahatlar, dəyişikliklər tələb edirdi. Burada ən əsas məqsəd də iqtisadiyyatın tərəqqisinin kəmiyyətcə deyil, struktur və keyfiyyətcə təkmilləşdirilməsi hesabına əldə edilməsi idi. Sənayə sahələrinin yeni növlərinin, əsasən də neft maşınqayırmasının inkişafi yeni - yeni sahələrə keçid bunlara misal edilə bilər.

Bazara keçid müddətində irəli sürülən konsepsiyasın əsasını iqtisadiyyatın inhisarsizlaşdırılması, mülkiyyətin özəlləşdirməsi, müstəqil sahibkarlığın mövcud olması göstərir ki, siyasətdə əsas xidmət sferasının, ticarətin, sosial sferanın və s. özəlləşdirilməsindən başlanması əsas şərtlərdən idi.

Müstəqilliyimizin bərpasından sonra Ulu Öndər H.Əliyevin tanıtdığı siyasət

ölkəmizdə çox böyük nailiyyətlərə səbəb olmuşdur və yeni model - Azərbaycan modeli yarandı. Yeni modelin əsas istiqamətləri müstəqil, azad iqtisadiyyatın formalaşması, milli iqtisadiyyatın təsərrüfat sisteminə rasional şəkildə inteqrasiyası, ümumi qloballaşma və s. ibarət idi.

Respublikanın iqtisadi və inkişaf modelinin müxtəlif özünəməxsus xüsusiyyətləri olmuşdur. Onlardan biri də müstəqilliyin ilk zamanlarında baş tutan islahatlar idi. Ən əsası kənd təsərrüfat sistemində reallaşdırılan birgə təsərrüfat sahələrinin ləğvi və torpaqların ödənişsiz paylanması, həmçinin bəzi əmlakların özəlləşdirilməsi həmçinin digər belə islahatlar nəticəsində ölkənin müdaxiləsi artmışdır. Kənd təsərrüfatında inkişafa görə məsuliyyət kənd əhalisinin, o cümlədən digər mülkiyyətçilərin üzərinə düşürdü. Beləliklə dahi öndərin milli dövlətçilik konsepsiyası öz təsdiqini taparaq çox mülkiyyətli iqtisadiyyat formalaşmış, xarici ölkələrlə münasibətləri, qlobal iqtisadi əlaqələri təkmilləşdirilmişdi.

Azərbaycan hökumətində müstəqillik əldə edildikdın sonra qəti addımlar atılmışdır. Özəlləşdirmənin reallaşdırılması iqtisadiyyatda ciddi dəyişikliklərə səbəb oldu və liberal, azad iqtisadiyyatın formalaşmasına təkan verdi. Beləliklə ölkədə ciddi irəliləyişlər oldu: iqtisadi sabitlik bərqərar oldu, müxtəlif investisiyaların sayı, həcmi artdı, xalqın yaşayış səviyyəsi yaxşılaşmağa doğru irəlilədi. İqtisadiyyatda təkcə neft sektoru deyil, neft sektorundan savayı sahələr baxımdan da ciddi addımlara təkan verildi, islahatlar həyata keçirildi. (Əli Əhmədov, (8 may 2010), Azərbaycan modeli, s.4)

"Əsrin müqaviləsi" 20.09.1994 tarixində imzalandı. Bu müqavilə ilə neft strategiyasında yeni bir dönəmin, əsası qoyuldu. Müqavilə milli maraqların təminində güclü strateji razılıq idi. Azərbaycan özünəməxsus neft-qaz ehtiyatları, maddi sərvətləri ilə öz hakimliyini sübut etdi. Bu müqavilə ilə respublikamızın beynəlxalq proyektlərdə iştirakı, İpək Yolunun yenidənbərpası, beynəlxalq nəqliyyat-trans dəhlizlərinin ölkə ərazisindən keçməsi üçün şərait yaradıldı. (https://president.az/azerbaijan/contract). 1995-ci ilin də bir digər əhəmiyyətli hadisəsi isə konstitusya qəbulu idi. Bu strateji cəhətdən mühüm hadisə olaraq yeni

qanunların qəbulunu, qanunların beynəlxalq standartlara uyğunlaşdırılmasını ölkənin inkişafını, qlobal inteqrasiyasını təmin edirdi.

İqtisadi ölkə modelinin yaradılması sahəsində aqrar islahatlar geniş rol oynamışdır. Bu həm iqtisadi strukturu, həmdə  cəmiyyətin yerləşməsi ilə əlaqəli olmuşdur.Həmin dövrlərdə iqtisadiyyatda sənayə sahələrinin payının artırılmasına cəhd edilməsinə baxmayaraq təsərrfat sisteminin çəkisi yüksək olmaqda davam edirdi.

Bu sahə işçilərin cəlbi əhalinin kənd yerlərində yaşamasına görə vacib rol oynayırdı. Bu əhalinin çox hissəsinin yaşadığı kəndi bazar sisteminə cəlb etmək vacib şərt idi. H.Əliyev buna görə aqrar islahatlara xüsusi önəm verirdi və aqrar islahatlar həyata keçirirdi. Torpaqların kəndlilər arasında bölüşdürülməsini nəzərdə tutan aqrar siyasətə görə torpaqlar bölünə bilsədə onu əkmək və becərmək üçün texnikanın fərdi təsərrüfatlar arasında bölünməsi mümkünsüzdür. Bütün torpaqların buna görə işlənməsi mümkün olmayacaqdır. Bütün bunlar aqrar sahənin islahatlarının riskləri olmuşdur. Lakin ədalətlilik prinsipinin reallaşdırılması, kəndlidə mühüm sahibkarlıq xüsusiyyətlərinin formalaşdırılması prinsipləri, gələcək inkişafa inam cəsarətli addımların atılmasına stimul verirdi. (Asif Şirəliyev məqaləsi, Xalq qəzeti, (15 avqust 2010), s.3)

Müstəqilllik əldə edilməsinin ilk çağlarında ölkənin maliyyə problemi yaşaması iqtisadiyyatda struktur dəyişikliklərin, inkişafın həyata keçirilməsinə mane olmuş, zəngin qaz, neft ehtiyatlardan istifadəyə əngəl törətmişdir. Nəticədə ölkəyə xarici sərmayələrin sövq edilməsi tək çarə hesab edilmişdir. Burada ölkəmizin zəngin qaz, neft resurslarının işlənməsi məqsədi güdülürdü, lakin başqa bir tərəfdə isə fərqli-fərqli beynəlxalq şirkətlərin biznes sahəsinə olan marağları dayanırdı. Buna baxmayaraq ölkənin zəngin ehtiyatları böyük maliyyə vəsaitlərinə çevrilməklə irəlidəki inkişafin əsasını  qoymağa başlamışdı və gələcək islahatlara, idarəetmə metodlarının həyata keçirilməsinə stimul olmuşdur. Azərbaycan artıq dünyada tanınmağa və güvənilir şəxsiyət kimi  qəbul edilməyə başladı.

Müstəqilliyin ilk illərinin sosial sıxıntılar, işsizlik, yoxsulluq sosial ədalət məsələlərini birdə gündəmə gətirmişdir. Bu an əsas rol dövlətin üzərinə düşürdü və

dövlət ehtiyacların təmini öz üzərinə götürüb tənzimləməli idi. Mühüm məsələ bu iki zidd sistemin uğurlu sintezinin yaradılması idi, hansı ki bu sintez inkişafa zəmin verməli idi. H.Əliyevin müdrik, siyasəti,uzaqgörənliyi nəticəsində bu sintez yaradıldı və sosial bazar modeli adlandırıldı. Bu sistem həm azad, sağlam rəqabət meyllərini, sahibkarlıq, mülkiyyət münasibətlərin, həmçinin cəmiyyətin qayğılarının, ehtiyaclarının dövlət tərəfindən nəzarətini nəzərdə tuturdu.

İnkişaf modelınin 2-ci dövrü milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə xidmət göstərən planların həlledici  dövrüdür. Bu mərhələ 2003-2013-cü illərə təsadüf edilir. Bu dövr milli maraqların dünya miqyasında möhkəmləndirilməsi mərhələsi olub, tərəqqinin yüksək dinamikasını özündə ehtiva edir.

On ilə yaxın dövrdə iqtisadiyyatın üç dəfə, dövlət gəlirlərinin on dəfədən artıq çoxalması təbii ki, yaranan təzə münasibətlərin səmərəliliyindən xəbər verirdi. Bu dövrdəki  böhran yeni iqtisadi modeli bir növ sınağa çəkmişdir. İllərin (2008-2009) ağır böhranından ən az təsir və zərərlə yan keçməyi bacaran ölkəmiz haqqında bir sıra maliyyə, iqtisad mərkəzlərinin hesabatlarında məlumatlar genişliklə öz əksini tapıb.

Azərbaycan modelinin vacib xüsusiyyətlərindən biri kimi regional inkişafin sürətləndirilməsi xətti əhəmiyyəti kəsb etməkdədir. İnkişaf mərkəzi olan Bakı rayonlar arasında yaranan fərqliliklər iqtisadiyyatda səmərəsiz strukturun formalaşmasına şərait yaratmışdır. Bu da inkişafa mane olmaqda davam edirdi və nəticədə mərkəz və rayonlar arasindaki  fərqliliklər artmaqda idi. Eyni zamanda ayrı-ayrı bölgələr də öz arasında kəskin fərqlənirdi. Bu ölkə iqtisadiyyatına hələdə mənfi təsir göstərməyə davam edirdi. Həmçinin bu bölgələr öz ehtiyaclarını ödəmək potensialına malik olmadığından, onların mərkəzdən maliyyələşməsinə ehtiyac yaranırdı. Beləliklə Azərbaycanın iqtisadi yöndə inkişafi üçün sərf edilməsi lazım olan vəsaitlər regionların tələbatlarının ödənilməsinə sərf edilirdi. (Tofiq Hüseynov, 2005)

Vəziyyətin həll edilməsi yolunda həlledici yol kimi Prezident İ.Əliyevin (2004) təşəbbüsülə regionların tərəqqisinin proqramı qəbul olundu.  Proqramın qəbulu nəticəsində müsbətə doğru irəliləyişlər yarandı. Bunlardan bəzilərinə nəzər

yetirək:

- Strukturda yaranmış kəskin fərqlər azaldıldı;
- regionlarda iqtisadi inkişafda irəliləyiş təmin edildi, iqtisadi fəallıq artdı;
- ümumi inkişaf müstəvisində regionların çəkisi yüksəldi;
- məşğulluq səviyyəsində irəliləyişə nail olundu işsizliyin aradan qaldırılmasında ciddi uğurlar əldə olundu;
- həyat səviyyəsi yaxşılaşdırıldı

İqtisadi yöndə inkişafda regionların rolu daim artır, inkişafin yeni modelinin vacib tərkibi kimi qiymətləndirilir.

Azərbaycan öz neft ehtiyatlarına görə müqayisədə dünya ölkələri içərisində fərqlənir və dünya neft ehtiyatları içərisində 0,6 % yer alır. Onun düzgün tənzimlənməsi vacibdir. Bu məqsədlə neft, qaz qazanclarının idarəsi strategiyası AR Prezidentinin 27.09.2004 tarixli 128 №-li Fərmanı ilə təsdiqlənmişdir.

Son dövrlər ölkəmizin qarşıya qoymuş olduğu əsas məqsədi idxalı azaltmaq, ixracı isə stimullaşdırmaq, yerli istehsalı artırmaqdır. Bu məqsədlə Dövlətin İnvestisiya proq. qəbul edilmiş, infrastruktur layihələri qəbul olunmuş, onlar əsasında özəl sektorun təkmiləşməsi və inkişafı, rəqabət yönümlü məhsulların istehsalı artırılmışdır. (AR Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası, 2007)

Bu dövrlərdə ölkədə baş vermiş dirçəlişlərə misal çəksək, görərik ki, yeni model düzgün istiqamətdə irəliləyirdi. Yeni açılmış iş yerlərin sayı artır, məşğulluq yüksəlir, işsizlik səviyyəsi 5.1%-ə enmişdir.

2003-cü ilin göstəricilərinə əsasən yoxsulluq həddi 49% hesab olunmuşdursa, 2012-ci ilin göstəricilərində bu 6% təşkil etmişdir. İqtisadiyyata 140 mlrd dollar miqdarında yatırım qoyulmuşdur və ölkədə valyuta ehtiyatları miqdarı artaraq 48 mlrd dolları keçmişdir.

Respublikanın sözügedən modelinin sonuncu, üçüncü mərhələsi kimi 2013-2018-ci illəri götürə bilərik. Bu dövr iqtisadi ədəbiyyatlarda modernləşmə dövrüdür, modernləşmə strategiyasının tətbiqi dövrüdür. Bu isə ölkəmizin hazırki inkişaf xüsusiyyətlərini özündə birləşdirir. Ölkə modeli kimi iqtisadiyyat və digər sektorların müasirləşməsi və bunun əsasında yaranan yeni növ inkişaf yolları,

istiqamətlər başa düşülür.

Modernləşmə bu mərhələlər içində ən əhəmiyyətlisi hesab edilir. Çünki, məhz onun sayəsində ölkədə olan mövcud vəziyyət, cari real şərait müşahidə edilir, digər dövrlər üçün plan və proqnozlar qurulur, strategiyalar işlənib hazırlanır. Azərbaycanda modernləşmənin məzmunu və strukturunu nəzərdən keçirsək, bu nəticə çıxar:

İqtisadi modernləşmə iqtisadi sahədə modernləşmədir. Bu modernləşmə fenomeninin təzahürüdür. İqtisadi modernləşmə nəzəriyyəsi iqtisadi modernləşmə fenomeni və modernləşmə teorilərinin sahəyə əsaslanan bir nəzəriyyədir. Hal-hazırda təxminən iki ədəd nəzəriyyə əhatə edir: klassik iqtisadi modernləşmə nəzəriyyəsi və ümumi iqtisadi modernləşmə nəzəriyyəsi.

1. Klassik İqtisadi Modernizasiya nəzəriyyəsi

Klassik modernləşmə nəzəriyyəsinin mühüm bir hissəsi olan klassik iqtisadi modernləşmə nəzəriyyəsi 1950-ci illər və 1960-cı illərin ətrafında yaranmışdır. 1960-cı ildə Amerikalı iqtisadçı Rostow "İqtisadi böyümə mərhələləri" adlı kitabı nəşr etdi və bu, klassik iqtisadi modernləşmə nəzəriyyəsinin doğumunu qeyd etdi. Bu günə qədər klassik iqtisadi modernləşmə nəzəriyyəsi hələ də universallaşmış və tam nəzəri sistemə malik deyildir və bu, geniş miqyaslı, zaman-ləyaqətli iqtisadi nəzəriyyələrlə bağlıdır. Əslində, klassik iqtisadi modernləşmə nəzəriyyəsi klassik iqtisadi modernləşmə üzrə akademik düşüncələrin toplusudur.

İkincisi, iqtisadi inkişaf mərhələləri nəzəriyyəsi. 1960-cı ildə Amerikalı iqtisadçı Rostow iqtisadiyyatın beşinci mərhələsini iqtisadi artımın mərhələləri (Rostow 2001) adlı kitabında təqdim etdi və 1971-ci ildə Siyasətdə və böyümə mərhələlərində altıncı mərhələyə əlavə etdi. Bu mərhələlər: ənənəvi cəmiyyət, çəkilmə, çəkiliş, qabaqcıllıq, yüksək kütləvi istifadənin yaşı və həyat keyfiyyətinin təqib olunması üçün ön şərtlərdir. İkinci beşinci mərhələlər klassik iqtisadi modernizasiyaya düşür.

Üçüncüsü, sənayeləşmə nəzəriyyəsi. Sənayeləşmə iqtisadi müasirləşmənin təməlidir. Sənayiləşmənin heç bir universallaşmamış təsviri yoxdur. Ümumiyyətlə, dar mənada sənayeləşmə sənayenin payı milli gəlir və məşğulluq strukturlarında

artmağa davam edən prosesə aiddir; geniş mənada sənayeləşmə, milli iqtisadiyyatın hərtərəfli sənayeləşdirilməsinə, o cümlədən sənayenin payının artırılmasına və kənd təsərrüfatının milli gəlir və məşğulluq strukturlarında azalma davam etdiyinə və sənaye istehsalının rejimi və ideyalarına daxil olma prosesinə aiddir bütün iqtisadi sahələrə daxildir. Sənayeləşmə tipləri və modellərinə dair çox sayda akademik yazı var.

Dördüncü, iki hissə model. 1950-ci illərdə Lewis "iki bölmə modeli" ni təqdim etdi. O, inkişaf etmək dövründə olan ölkələrin iqtisadiyyatının iki şöbədən ibarət olduğunu fərz edir: biri böyük kənd əhalisi olan ənənəvi kənd təsərrüfatı idarəsidir və sıfir marginal əmək məhsuldarlığına malik olan yalnız əsas canlılıq təmin olunur; digərində əmək məhsuldarlığı yüksək olduğu və çöl ərazilərində olan çoxlu işçi qüvvəsi əmələ gələn şəhər yerlərində müasir sənaye şöbəsidir. Kənd təsərrüfatı şöbəsi ilə sənaye bölməsi arasında əmək haqqı boşluğu var və iqtisadi mexanizm kənd təsərrüfatı işçi qüvvəsini sənaye şöbəsinə daxil edə bilər. Kənd işçi qüvvələrinin payı və torpaqların azaldılması kimi, kənd işçi qüvvəsinin marjinal məhsuldarlığı artacaq, əmək haqqının artırılması. İqtisadi fəaliyyətlər, ənənəvi kənd təsərrüfatından müasir sənayeyə keçid olaraq, bir balansla nəhayət çatacaq və iqtisadi strukturun çevrilməsini tamamlayır.

2. Ümumi iqtisadi modernləşmə nəzəriyyəsi

Ümumi iqtisadiyyatın modernləşdirmə nəzəriyyəsi 18-ci əsrin 21-ci əsrlərindəki iqtisadi modernləşmə hadisələrinin nəzəri təfsiridir. İqtisadi sahədə ikinci modernləşmə nəzəriyyəsinin tətbiqi və ilk dəfə Çinli alim He Chuanqi tərəfindən irəli sürülmüşdür. Ümumi iqtisadiyyatın modernləşdirmə nəzəriyyəsi ümumi nəzəriyyəni, filial nəzəriyyələrini və əlaqəli nəzəriyyələri əhatə edir. İkinci iqtisadi modernləşmə və inteqrasiya olunmuş iqtisadi modernizasiya haqqında mövcud məlumatlarımız məhduddur. Ümumi iqtisadi modernləşmə nəzəriyyəsi daha çox tədqiqat və gələcək inkişafi gözləyir.

Birincisi, iqtisadi modernizasiyanın tərifi.

İqtisadi modernləşmə iqtisadi sahədə modernləşmə təzahürüdür. İqtisadi modernləşmənin konkretləşdirmələri aşağıdakılardır: İqtisadi modernləşdirmə 18-ci

əsrdə sənaye inqilabından sonra iqtisadiyyatın beynəlxalq sərhəd dəyişikliyinə və beynəlxalq rəqabətə, müasir iqtisadiyyatın formalaşması, inkişafi, transformasiyası və beynəlxalq qarşılıqlı təsirini əhatə edir. Yenilik, iqtisadi elementlərin seçilməsi, yayılması və çıxarılması, eləcə də ölkələr iqtisadiyyatda dünya səviyyəsini inkişaf etdirmək, üçün beynəlxalq rəqabət, fərqlilik və təbəqələşdirmə kimi sahələrdə fəaliyyət göstərir.

İqtisadi modernizasiyanın ifadələri aşağıdakılardır: İqtisadi modernləşdirmə qlobal, milli və regional iqtisadiyyatların modernləşdirilməsini, iqtisadi davranışların, iqtisadi strukturların, iqtisadi sistemlərin və ideyaların modernləşdirilməsini, iqtisadi təchizatın müasirləşdirilməsini, iqtisadi dövriyyəni, iqtisadi dağıdıcılığı, iqtisadi tələblər və iqtisadi mühit, kənd təsərrüfatı kimi iqtisadi sektorların modernləşdirilməsi və iqtisadi modernizmin temporal və məkan dağılımının dəyişməsi.

Ümumiyyətlə, iqtisadi modernləşmə iqtisadi dəyişikliklərin qlobal sərhədlərinə, eləcə də qlobal sərhədlərə çatma və davam etmə prosesinə aiddir; iqtisadiyyatdan iqtisadiyyat iqtisadiyyatına və sənaye iqtisadiyyatından iqtisadiyyat iqtisadiyyatına, iqtisadiyyatın səmərəliliyinin və adambaşına düşən gəlirlərin davamlı artımını, iqtisadi rifahın, iqtisadi bərabərliyin, bir ölkənin iqtisadi vəziyyətinin və beynəlxalq iqtisadiyyatın dəyişməsini əhatə edir. İqtisadi system ölkə iqtisadiyyatın modernləşdirilməsi işində və praktikasında əsas vahiddir; dünya iqtisadi modernləşmə üçün beynəlxalq arenadır, regional iqtisadi modernizasiya milli iqtisadi modernizmin bir hissəsidir və sonuncu mövzuya tabedir. İqtisadi modernləşmə ekolunda dəyişikliklərin bir növüdür.

- infrastrukturun modernləşməsi;
- həyatın təmərküzləşmə və təşkilində, məskunlaşmada müasirləşmə.

Moderləşmə strategiyasının məqsədləri kimi istehsalın artımı, struktur dəyişikliklər, texnologiyanın üstünlüklərindən istifadə; onların tətbiqinin artırılması, dünyanın iqtisadiyyatına inteqrasiya qloballaşma, yeni və mütərəqqi sahələrin inkişafi, yaradılması, sosial sahələrdə və xidmət sahələrində yüksəlişi bacarmaq və s. göstərmək olar. Burada infrastruktur siyasətini xüsusi göstərə bilərik, hansı ki,

günü-gündən çəkisi daha da artır. Sözsüz ki buda, iqtisadi şəraitin yaxşılaşdırılmasına, inkişafina səbəb olur. Yollar, bina və tikililər, körpülər və digər işlərin artımı ölkədə iqtisadi yüksəlişə, məşğulluğa təsir edir. Sözügedən siyasət bir növ sosialyönümlü rol oynayır, gəlirlərin düzgün bölgüsündə əhəmiyyətli amil kimi özünü göstərir. Böhrandan sonrakı vəziyyətdən çıxış zamanı da məhz infrastruktur layihələrin rolu danılmaz olmuşdur.

Müasir dövrdə heç bir irəliləyiş, uğur təbii ki, insan kapitalı, işçi qüvvəsi olmadan mümkün deyildir. Zəngin sərvətlər, infrastruktur, təbii ehtiyatlar bunlar hamsı ixtisaslı kadrlar, mütəxəssislər olmadan inkişafa apara bilməz. Müasir dövrdə bununcün də, diqqət verilən sahələrdən biri məhz təhsil, sosial sferalar, səhiyyədir. İxtisaslaşmış, savadlı cəmiyyət ölkənin inkişafının təməlini təşkil edir. Yeni inkişaf modelinə əsaslanaraq inkişaf yalnız təbii sərvətlərə arxalanmamalıdır. Onlar qənaətli işlədilməli, yeni dəyər yaradılaraq, digər yeni sahələrin inkişafı naminə sərf olunmalıdır. Qısaca olaraq ehtiyatların, neft kapitalının insan kapitalı ilə əvəzlənməsi məqsədində çıxış edir.

Ölkəmiz texnologiyaya əsaslanan iqtisadi sistem, iqtisadiyyat qurmağı planlayır. İntellektual çəkinin artırılması əsas məqsədlərdən biri obrazındadır. Buna görə təhsildə aparılan islahatlar, pulsuz təhsil, dövlət hesabına xaricdə aparıcı təhsil mərkəzlərində təhsil imkanının artırılması, həvəsləndirmə və mükafatlandırma və s. planlar həyata keçirilir.

Keçən il bu və başqa tədbirlər nəticəsində ölkədə ÜDM-də 1%; q/neft sistemində 1,30%; neft sektorunda 0.30% artım olmışdır. ÜDM-in 45,2%-i sənayedə; 9,30 faizi ticarət sahələrində, 6,80 %-i tikintidə, 6,4 %-i anbar, nəqliyyat təsərrüfatı, 5,4 %-i kənd, meşə təsərrüfatı, balıqçılıq, 2,3 %-i ictimai iaşə, turistlərin yerləşdirilməsi, 1,5 %-ni rabitə, informasiya sahələrində, 15,1 %-i başqa sahələrdə istehsal edilmiş, idxal məhsula xalis vergilər ÜDM-nin 8 faizini əhatə etmişdir. (Azərbaycanın statistik göstəriciləri, 2018)

Bu zamanda rabitə sahələrində və informasiya sahələrində 9.2, anbar və nəqliyyat təsərrüfat sahələrində 7.9, ictimai iaşə, turistlərin yerləşdirilməsi sahələrində 7.6, balıqçılıq sahələrində 4.6, ticarət sahəsində, nəqliyyat vasitələrinin

təmirində 2.7 , sənayedə 1.3 % yüksəliş olmuşdur.

1 nəfərə düşən ÜDM 7378.5 AZN bərabər olmuşdur. Məs, 2014-ci ildə yanvar ayından iyun ayına kimi qeyri neft-qaz üzrə büdcəyə iki milyard 51 mln Azn vəsait daxil olmuşdur, keçən ilin uyğun zamanilə müqayisə olunduqda 15 faiz çoxdur. Bu ilin 1-ci yarısında neftdən qeyri sektorlarda on faizlik artımıda, şübhəsiz, iqtisadiyyatın genişlənməsi tədbirlərindən xəbər verir. DSK araşdırmalarına əsaslanaraq, ölkənin ÜDM-ı sadəcə 3.631 milyard AZN olduğunu bildirmişdir. Sonralar, bu komitəyə görə, ÜDM-nin 66.6%-i qaz və neft sektorundan kənara aiddir. Keçən ilin həmin dövrünə nisbətən bu rəqəm 5.1% artmışdır. ÜDM-nin 36.3%-i sənayenin payına düşmüş, 12.00%-i nəqliyyat vasitələrinin saxlanmasına, ticarətinə, 6.72%-i nəqliyyat və anbarlar, 10.42%-i inşaat, 3.51%-i turistlərin həmçinin yemək paylama xidmətlərinin payına, 3.41%-i meşəçilik, kənd təsərrüfatı, balıqçılıq sahələrinə, 2.43%-i kommunikasiya informasiya xidmətlərinə, 14.91%-i sosiala, başqa xidmət sahələrinə sərf olmuşdur. (https://www.stat.gov.az/source/industry).

Hal - hazırda AR Prezidenti cənab Əliyevin rəhbərliyi ilə aparılan çoxsaylı islahatlar genişlənmişdir. Sosial iqtisadi yöndə keyfiyyətcə yeni və davamlı inkişafa keçidin əsas mənbəyi yaradılıb. Bunun hədəfi - sosial ədalətlilik, iqtisadi səmərəlilik, ekoloji təhlükəsizlik prinsiplərini bələdçi tutmaqla, milli iqtisadiyyatımızın yüksəldilməsi, dünyanın təsərrüfat sisteminə əlverişli inteqrasiyası sayəsində əldə edilmiş uzunmüddətli perspektivdə inkişafın təminatından ibarətdir.

Respublikada sahibkarlıq inkişafı ilə biznes şəraitinin daima yaxşılaşdırılması, bu yöndə qanunvericiliyin təkmilləşdirilməsi, müasir texnologiyaların, xarici, yerli investisiyaların, idarəetmə təcrübəsinin cəlb olunması, bu yolla keyfiyyətli, rəqabətqabiliyyətli məhsulun istehsal edilməsi AR Prezidentinin müəyyənləşdirdiyi iqtisadi inkişafin prioritetlərindəndir. Bizim bugün əsas hədəfimiz kainatın təsərrüfat sahəsinə səmərəli inteqrasiyası, sahibkarlığın q/neft strategiyasının tərəqqisinin sürətləndirilməsini əsas tutaraq ölkədə əldə edilmiş dinamik inkişafın davamlı olmasının təmin edilməsidir.

Sahibkarlıq tənzimlənməsi məsələsinin təkmilləşdirilmə sahəsində önəmli addımlar atılmışdır. Sahibkarların haqlarının müdafiəsinin mexanizmləri yaradılmış, onların tətbiqləri nəticəsində müdaxilə olunma halları xeyli azalmışdır.

Sahibkarlığın informasiya ilə, məsləhətlə təminatının gücləndirilməsi eyni zamanda işgüzar əlaqələrin inkişafı sahəsində müntəzəm planlar reala keçir. Bununla bərabər, sahibkarlığa maliyyə köməkliyi sistemi yaradılmışdır. Hazırda bu mənbə orta, həmçinin kiçik sahibkarların maliyyəyə olan tələbatının ödənilməsinin özəyini təşkil edir. Sahibkarlığın inkişaf yönündə qəbul edilmiş normativ sənətlər, iş adamlarında özünəinam hissinin güclənməsini artırmışdır. Sahibkarlıq sisteminin genişləndirilməsinə, xüsusi olaraqda yeni sahibkarlıq subyektinin regionlarda fəaliyyətə keçməsinə təkan vermişdir. Artıq ölkəmizdə fəaliyyət göstərmiş olan sahibkarlıq subyektləri bu sosial təşəbbüslərə fəal qoşulur.

11.02.2004-cü il tarixli təsdiq edilmiş dövlət başçısının Fərmanı ilə "AR-da bir çox bölgələrin potensial inkişaf, həmçinin sahibkarlığın kəskin inkişafı yönündə planlar real hal almışdır. Təzə emal və istehsal müəssisələri yaradılmışdır. Cəmiyyətin  səviyyəsi xeyli yaxşılaşdırılmışdır.

Respublikada biznes mühitinin, sahibkarlığın yaxşılaşdırılmasına hər an qayğı göstərilməkdədir. AR Prezidentinin "bir pəncərə" prinspilə “Sahibkarlıq subyektlərinin forma və fəaliyyət sisteminin" təşkilinin təminatı barəsində" 25.10.2007 tarixli Sərəncamilə aidiyyatı orqan AR-nın Vergilər Nazirliyinin müəyyən etmiş və 01.01.2008 tarixindən tətbiqinə başlanılmışdır. (http://milliarxiv.gov.az/az/bir-pencere-prinsipi)

Ölkəmizdə əlverişli olan biznes mühitinin yaradılması yönündə beynəlxalq təcrübə öyrənilməsi, onun tətbiqi istiqamətində beynəlxalq təşkilatlarla daha möhkəm əməkdaşlıq göstərilir. Kecmiş illər ərzində sahibkarlığı tənzimləyən qaydalar, xeyli liberallaşmış, ölkəmizdədə ixrac rüsumları ləğv olunmuş, maliyə yardım mexanizmi işə salınmışdır. Əlverişli biznes şəraitinin yaradılması, sahibkarlığın inkişaf səbəbilə kəskin formada islahatların aparılması xalqımızın Ulu Öndəri tərəfindən müəyyənəşdirilmişdir. Hal- hazırda Az. Resp. Prezidenti başçılığı ilə ardıcıl formada reala keçirilən inkişafin tələbindəndən qaynaqlanır. Həmçinin bu

onun mərkəzində durur. Respublika iqtisadiyyatının tarazlı və davamlı şəkildə inkişafının təmin olunması, regionların tərəqisinin sürətləndirilməsi həmçinin ölkəmizin sosial-iqtisadı tərəqqisinin hal-hazırkı mövqeyinin prioritet vəzifələrindəndir. Bu məqsədyönlü formadakı siyasət nəticəsində biznes şəraitinin əlverişliliyinin artırılması baş vermişdir. Son dövrlərdə biznes şəraitinin əlverişliliyinin çoxaldılmasına təsir göstərən şərtlərdən birini qeyd edək: vergilərin sayı, sosial sahədə sığorta ödənişləri azaldılmışdır. Vergi dərəcələri 1998-ci ildən başlayaraq ardıcıl şəkildə endirilməyə başlamışdır. Təşkilatların və müəssisələrin mənfəətindən vergilərin tutulmasının proqressiv formasından proporsional formaya keçilməsi, vergi dərəcəsinin 35%-dən tədricən 22%-ə endirilməsi, ƏDV 18% azaldılması. Xeyli sayda verginin ləğvi, fiziki şəxslərin gəlirlərindən tutulmuş verginin dərəcəsinin max həddinin 55%-dən - 35%-ə endirilməsi, sosial sığortanın ayırmalarının 22 %-dək aşağı endirilməsi vergilərin ümumiləşmiş sayının 9-dək azaldılması, kənd təsərrüfatının məhsullarının istehsalı vasitəsilə məşğul əhalinin torpaq vergisi istisna edilməklə (2009-cu illədək) digər vergilərdən azadı və s. proqramlar biznes mühitinin keyfiyyətinin artımı ilə şərtlənmişdir.

## 2.2. Ölkənin iqtisadi maraqlarinin təminatında dövlətin tənzimləmə vasitələrindən istifadə

Azərbaycanda dövlətin tənzimlənməsi (1993) tətbiq edilməyə başlamışdır. Bildiyimiz kimi bəzi iqtisadiyyat obyektləri vardır. Bu obyektlərin əsas mahiyəti iqtisadiyatın effektli fəaliyyəti üçün dövlət tənzimləməsini düzgün məqsədlərə istiqamətləndirməkdir. Bunlara isə aşağıdakıları nümunə göstərə bilərik:

- iqtisadiyyatın sahə tərkibi, regional, sosial strukturu və təkrar istehsalı
- iqtisadi tsikl, pul tədavülü, investisiyalar, tədiyyə balansı
- məşğulluq, həyat keyfiyyəti, təhsil səviyyəsi,
- sosial sahənin, ekologiyanın mühafizəsi,
- qiymət səviyyəsinin tənzimlənməsi, antiinflyasiya hadisələri;
- dövlətə məxsus əmlakların özəlləşdirilməsi, antinhisarçılıq, və s.

Bu saydıqlarımız yerli, milli maraqlara söykənərək milli iqtisadiyyatımız üçün əsas sayılır. Lakin bazar iqtisadiyyatında təcrübəyə əsaslanaraq dövlət tənzimlənməsi ölkələrin coğrafi, iqtisadi, milli-mədəni maraqları, adət və ənənələrinə uyğun olaraq fərqli metod və formalarla reallaşır. Sözügedən sistemdə istifadə edilən bu metodları təsnifatlaşdırmaq heç də asan proses deyildir. Təcrübədə istifadəyə əsaslanan təsnifatlaşdırma aşağıdakı kimidir:

-Ümumi metodlar

-Təsadüfi və istisnalıq təşkil metodları

-Xüsusı metodlar

1) Ümumi metodlar metodoloji xarakter daşıyır, metodlara əsaslanırlar. Bu metodları təfəkkür və sistem metodları kimi ayırırlar.

2) İstisna təşkil edən və təsadüfi metodlardan geniş istifadə edilir. Bunların əsas xüsusiyyətləri iqtisadiyyatın tənzimlənməsinin iqtisadi, sosial inkişafinda aparıcı rol oynamalarıdır. Bunlar da statistik, iqtisadi metodlardan və riyazi metodlardan ibarətdir. Günümüzdə təhlil və analiz zamanı ən çox statistik təhlil metodu istifadə olunur. Baxmayaraq iqtisadi qruplaşdırma, büdcə, kredit metodu kimi iqtisadi-riyazi metodlarından çoxmiqyaslı istifadə edilir.

3) Sözügedən sistemdə xüsusi metodlar işlədilən əsas təsniflaşdırma metodlarından biridir. Buda balans metodu, norma və qaydalara əsaslanmış normativ metod, proqram metodu kimi metodları özündə birləşdirir.

İqtisadiyyatın dövlət tənzimlənməsindəki bu 3 metodun (ümumi, təsadüfi və xüsusi metod) hal-hazırki bazar iqtisadiyyatında iqtisadi və sosial sistemlərə təsir dərəcələri fərqli ola bilir. Buna görədə iqtisadiyyatın tənzimlənməsinin metodlarının təsnifatlaşdırılmasında ilk məlumatın təhlili, həmçinin birbaşa, dolayı metodlardan istifadə olunur.

İlkin informasiyanin təhlili metodunda milli iqtisadiyyatda həyata keçən bütün proseslər vahid mərkəzdə cəmlənir. Daha sonra əldə edilmiş bu informasiya toplusu vasitəsilə keçmiş dövrlə indiki müasir dövr arasında müqayisə aparılır, təhlil edilir və gələcəkdə baş vermiş problemlərin, uyğunsuzluqların birdə baş verməməsinə görə düzgün, operativ proqnoz edilir. Bu metodların bəzi növləri var:

- Qruplaşdırma metodu: dövlətin özü iqtisadiyyatının tənzimlənməsi zamanı baş vermiş problemin həll yolların tapılması üçün əvvəlcə bu problemləri qruplaşdırır.

- Normativ metod: Dövlət öz iqtisadiyyatının tənzimlənməsi zamanı öncədən öz fəaliyyəti prosesində bəzi qaydalar əsasında normativlər müəyyənləşir, təsdiq olunmuş normativlər əsasında iqtisadiyyat tənzimlənməsi zamanı ehtimal olunan problemlər həll olunur. Misal üçün qanunvericiliklə yaşam standartları nəzərə alınaraq əvvəlcədən min. əməkhaqqı norması təyin edilmişdir. Bu təsdiq edilmiş normativ iqtisadiyyatda əmək haqqının digər səviyyələrinin qəbul olunmasında başlı rol oynayır.

- İndeks metodu: Dövlət bazar iqtisadiyyatı zamanı formalaşmış hər hansısa məhsulun qiymətini əvvəlki dövrlərdə reallaşmış qiymətlə müqayisə edir. Məs. qiymət indeksinin təyin olunması.

- Sturukturlaşma metodu: Dövlət iqtisadiyyatın tənzimlənməsində bu metodu istifadə edərkən təyin olunan məqsədləri daha kiçik və əlyetən məqsədlərə bölür. Daha reallaşa bilən, konkret məqsəddən problemin həlli yolu üçün addımlar atılır. Bunçün metoda "məqsədlər kötüyü" də deyirlər.

- Sosial metodlar: Dövlət iqtisadiyyatın tənzimlənməsində bu metoddan istifadə zamanı sosial problemləri birbaşa təyininə görə əhali ilə kompakt şəkildə sorğular təşkil edir. Anketlər doldurulur, müxtəlif müsahibələr aparılır.

- Ekspert metodu: İqtisdiyyatın tənzimlənməsində problemlərin həlli mümkün olmadıqda problemin baş verdiyi sahə üzrə mütəxəssislərdən, onların fikirlərindən yararlanırlar. (http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=21)

Dövlət tənzimlənməsinin metodlarının təsnifatlaşdırılmasında ilkin informasiyanın təhlili, alınması metodundan başqa birbaşa və dolayı yollardan da istifadə edilir. Onları aşağıdakı formada adlandırılır

- Bir başa metod – mərkəzçilik prinsipi ilə, inzibati amirlik formasında tənzimləmə metodudur.

- Dolayı metod – iqtisadi tənzimləmə metodudur və digər metodlarla birlikdə tətbiq edilir.

Bazar iqtisadiyyatında tənzimləyici amillər effektli olmadıqda, normativlər hazırlanmadıqda və ya düzgün tərtib edilmədikdə, standartları, reallığı əks etdirmədikdə, beynəlxalq əlaqələrdə milli iqtisadi maraqlar qorunmadıqda inzibati metodların istifadə olunması mütləqdir. Dövlət bir başa metodlar vasitəsi ilə iqtisadiyyata təsir göstərə bilər. Bəzi misallar çəkə bilərik.

1) İqtisadiyyatın inkişafina görə missiyaların, hədəflərin təyin edilməsi – Hər ilin əvvəlində cənab prezident tərəfindən iqtisadiyyatımızın inkişaf modelləri və dövlət proqramları hazırlanır və bu proqram əsasında il boyu işlər görülür.

2) İstehsal edilən məhsula həmçinin texnologiyaya keyfiyyətin tətbiq olunması. Misal olaraq: Qida Təhlükəsizliyi Agentliyi buna bir misaldır. İstehsal edilmiş məhsula keyfiyyət sertifikatlarının verilməsi və yoxlanılması iqtisadiyyatin sağlam yaşaması üçün atılan vacib olan addımlardan biridir.

3) istənilən məhsul növlərinin istehsalının məhdudlaşdırılması, bir sıra qadağanın qoyulması.

4) Əmtənin eksport və importuna məhdudiyyətlərin gətirilməsi. Yerli istehsalın artırılması üçün xeyli məhsulların idxalındakı gömrük rüsumlarının artırılması və ümumiyyətlə qadağa tətbiqi və bundan başqa yerli bazarın təmini üçün bəzi növ məhsulların ixracının məhdudlaşdırılması islahatları həyata keçirilmişdir.

İnzıbati metodlar vasitəsi ilə dövlət birbaşa olaraq iqtisadiyyata təsir edir. Bununla belə inhisar bazar tənzimlənir, ətraf aləmin qorunması baş verir, ölkə üzrə vahid standartlar tətbiq edilir, xalqın həyat səviyyəsi yaxşılaşır. Bu əsasən qısa bir müddətli xarakter daşıyır, tezliklə problemin həlli nəzərə alınır. Bu metodlara dövlətin qəbul etdiyi proqram, plan və irəli sürdüyü proqnozların tətbiqi, sahibkarlığa dəstək və onun inkişafi, dövlətin kontrakt, müqavilə sistemləri və sifarişləri aiddir.

Bazar iqtisadiyyatında digər bir dövlət tənzimlənməsi dolayı metodlardır. Bu bir başa bəzi qaydalar tətbiq etməklə dolayı yolla təsərrüfatla məşğul subyektin fikirlərinə təsir edir. İqtisadi tənzimləmə forma və metodlarına aşağıdakılar aiddir:

1) Vergiqoyma: vergidən azadolma, vergi güzəştləri tətbiq edilir. (2019-cu il) Bu il üzrə vergiqoyma sahəsində mühüm islahatlar həyata keçirildi. Sahibkarlığa

dəstək və yeni yaradılacaq sahibkarlara stimul vermək məqsədilə sadələşdirilmiş verginin faiz dərəcəsi 4%-dən ölkə üzrə 2%-ə salındı. Bundan başqa əhalinin rifahını yaxşılaşdırmaq məqsədilə işçi tərəfindən ödənilən gəlir vergisi ləğv edildi, iri sahibkarlara dövriyyələrinin çoxluğu ilə əlaqəli bir çox güzəştlər də nəzərdə tutuldu. Dövlət tənzimlənməsi bundan başqa ölkəyə gətirilən kənd təsərrüfatı mallarının azaldılması üçün, yerli istehsalı gücləndirmək üçün kənd təsərrüfatılə məşğul sahibkarlara bir çox vergi güzəştləri, azadolmaları əhatə etdi.

2) Qiymətlərin səviyyələrini, onların tənzimlənməsi və formalaşmasının yaranan nisbətinin müəyyənləşdirilməsi. Süni formada olan qiymət artımasının önün almaq məqsədi ilə orqanlar müntəzəm olaraq monitorinqlər keçirir. Bundan başqa qiymətlərin sabit qalması üçün yerli istehsal gücləndirilir və ya idxal rüsumları aşağı salınır. Bununla da həmçinin qiymətlərin sabit qalmasına dəstək verilir.

3) Kreditlərə görə faiz, ehtiyyatlara görə isə ödəmələr və kredit güzəştləri. Milli pul vahidinin digər valyutalara nisbətən güclənməsi bir çox islahatların aparılmasına yol verdi. Bu halda MB uçot faizlərini 9,75%-dən 9,25%-ə düşürdü. Bununla belə bankların təklif etdiyi kredit faizləri də aşağı salındı. İqtisadiyyatın inkişafina görə sahibkarlıqla məşğul olmağa görə imkanlar yarandı.

4) Valyuta mübadilə şərti, gömrük rüsumu, valyuta məzənnələri. Ölkədə iqtisadiyyatın xeyli sahələri üçün gömrük rüsumlarının stimullaşdırılması, bundan başqa valyutamızın möhkəmlənməsi, valyuta ehtiyatlarımız artmasını dövlətin iqtisadiyyatın dolayı metodlarla tənzimlənməsinin nəticəsidir. Bu halda dovlət daxildə hansısa məhsulun istehsalının genişləndirilməsinə dəstək vermək məqsədilə həmin məhsulların idxal rüsumlarını artırmaqla tənzimləyə bilər.

Bütün dövlətlərin olduğu kimi dövlətimizdə də ən vacib vəzifə kimi dövlətdən tam ayrı, tarazlı iqtisadi sitemi formalaşdirmaq və onu istiqamətləndirməkdir. Bu ölkənin qarşısında inkişaf strategiyası baxımdan duran əsas sərtlərdəndir. Qeyri-adi səviyyədə, müxtəlif regionlarda ərazi fərqinin yaranmasına səbəb olacaq ekoloji bunun kimi başqa böhranların aradan götürülməsi və qarşısının alınmasıdır.

İqtisadiyyatın tənzimlənmələrində xüsusi, vacib yerə məxsus qurumlardan biri də Mərkəzi Bankdır. Mərkəzi Bank da özlüyündə bu tənzimləmə üçün xeyli vacib

funksiyalardan istifadə edir. Onlardan biri valyuta və kredit siyasətinin hayata keçirilməsidir. Bu siyasətləri hayata keçirməklə başlıca məqsəd ölkədə maliyyə vəziyyətinin yaxşılaşması, inflyasiya dərəcəsinin tənzimlənməsidir. Öz növbəsində buda iqtisadi artıma, inkişafa, məşğullugun artmasina təkan verir. MB (Mərkəzi Bank) özünün bu siyasətini 2 üsulla edir. 1. Sərt 2. yumşaq.

1) Sərt pul siyasəti – yüksək inflyasiya dövründə baş verir. Əsas məqsəd ölkədəki artıq olan pul kütləsini cəlb etməkdir. Bu banklar tərəfindən verilən kreditlərin limitləşdirilməsinə gətirib çıxarır. Qiymətli Kağızlar Fondu tərəfindən dövriyyəyə qiymətli kağızlar buraxılmaqla ölkədəki pul kütləsini azaldır, burda digər əsas məqsəd milli pul vahidinin gücləndirilməsinə yönləndirilmişdir.

2) Yumşaq pul siyasəti – güclü inflyasiya gözləntilərinin az olduğu şəraitdə yeridilir. Bununla da MB uçot seviyyəsini aşağı salir və banklara kredit verilişlərini artırır. Əsas hədəf, əhalidə, müəssisələrdə olan tələbat əmsalını yaxşılaşdırmaqdır. Mərkəzi Bank bu siyasəti özü dəyərli kağızlar alaraqdan ölkədəki pul kütləsini artırmaqla da edə bilər. (https://kayzen.az/blog-/ekonomiks/8117/bazar%C4%B1nt%C9%99nziml%C9%99%C9%99si-metodlar%C4%B1.html)

Dövlət tənzimlənməsində tənzimləyici vasitələrdən biri də büdcədir. Büdcə-Az. Respublikasının dövlət hakimiyyəti, özünüidarəetmə orqanları tərəfindən bələdiyyələrə, dövlətə məxsus olan vəzifələri real etmək üçün lazımi valyuta vəsaitlərinin yığılması, istifadəsi üçün maliyə sənədi sayılır. Məhz büdcə vasitəsilə, proqnozlaşdırılan maliyyə vəsaiti cəlb edilir və öz növbəsində bölgüsü aparılır və xərclənir. Büdcə üçün əsas maliyyələşmə mənbəyi vergidir. Buna görə vergi sıyasəti başlıca siyasətlərdən biridir. Ölkəmizdə iqtisadi inkişafin hədəfi q/neft sənayesi sektorudur. AR Prezidentinin 21.12.2011 tarixli 548№-li Fərmanılə yaradılmış olan "Sumqayıt Kimya Sənaye Parkı"nda on yeddi müəssisə rezident olaraq qeydiyyatdan keçmişdir. Q/neft və ümumiyyətlə ixracın artırılması yerli istehsalın saxlanması, məqsədilə xüsusi rüsumlar nəzərdə tutulmuş, 84 mal mövqe-
yi üzrə idxala 2 illik xüsusi rüsumlar tətbiq edilmişdir. (www.president.az)

Ölkəmizdə həmçinin yerli istehsal olan malların kənar təsirlərdən mühafizə olunmasına görə fərqli tədbirlər və idxal gömrük rüsumlarında dəyişikliklər

aparılmışdır. Azpilləli sistemin tətbiqi, bəzi idxal rüsumlarının artırılıb/azaldılması məhz bu istəyə nail olmağa görə həyata keçirilmişdir. Burada məqsəd q/neft sektorunda sürətli inkişafin təmin olunmasıdır. İnvestisiya stimullaşdırıcı tədbirlərin görülməsi, əsasən kənar investisiyanin cəlb edilmesi buna nail olmağıımıza görə məqsədə uyğundur. Daxili istehsalların rəqabət bacarığının yüksəldilməsi, idxalın əvəz olunmasının dəstəklənməsi, yerli məhsulla özünü təmin etmənin yüksəldilməsi, q/neft siyasətinin ixracının digər imkanların genişlənməsi ölkə Prezidentinin 06.12.2016 tarixli 1138 №li fərmanı vasitəsi ilə təsdiqlənmis iqtisadiyyatın, milli iqtisadiyyatın vacib sektorları vasitəsilə yol xəritələrində strateji məqsəd olaraq müəyyənləşdirilmişdir.

## 2.3. Minilliyin çağırışları və ölkənin iqtisadi maraqlarının uzlaşdırılması vəziyyətinin təhlili

Minilliyin çağırışları məsələsinə toxunduqda onun hədəflərinin araşdırılması əsas istiqamət olaraq hesab edilir. Minilliyin əsas məqsədləri kimi müxtəlif istiqamətlər seçilmişdir. Bunlardan bir qismi aşağıdakılardır:

1) Ölkədə, məşğulluq səviyyəsi, yoxsulluq həddi və ondan asağı səviyədə yaşayan xalq, adambaşına düşən gəlirlər, maaş səviyyəsi, nominal, real maaş arasında fərqlər, işsizlik və bu statusu alan kəslər;

2) Ölkədə təhsil şəraiti, savadlılıq səviyyəsi, ibtidai, tam orta, təhsildə qeydiyyat çəkisi;

3) Gender bərabərliyi, savadlı kişilərin və qadınların müqayisəsi və nisbəti;

4) Körpə ölümü və səbəbləri;

5) Qadın sağlamlığı, doğuş, ölüm əmsalları;

6) Virus və xəstəliklərin yayılma genişliyi, səbəbləri;

7) Torpaq sahərinin həcmi, içməli su mənbələri və yararlı torpaq sahələrinin həcmi;

8) Texnika, telekommunikasiya sistemləri, müasir rabitə, telefon, internet, kompüter istifadəçiləri və onların sayı.

Digər bir yanaşmadan isə minilliyin inkişaf məqsədlərinə aiddir:

1) Aclığın və hədsiz yoxsullugun aradan götürülməsi

2) İbtidai (ümumi) təhsilə nail olunması;

3) Cins-gender bərabərliyinin təmini və qadın hüquq və səlahiyyətlərinin qorunması, onlara səlahiyyətlərin verilməsi;

4) Uşaq, körpə ölümünün azaldılması

5) Qadın, ana sağlamlığının yaxşılaşdırılması

6) Müxtəlif xəstəliklərə (QİÇS/HİV, malyariya və s.) qarşı mübarizə tədbirləri;

7) Ekologiyanın qorunması, fasiləsizliyinin təmini;

8) Qlobal inteqrasiya, beynəlxalq tərəfdaşlığı təminatı.

İndi isə sadaladığımız məqsəd və qarşıya qoyulmuş hədəflərə ayrıca baxaq

1) İlk məqsəd yoxsulluğdur. Müasir dövrdə xeyli ölkənin, o cümlədən bizim ölkənin əsas problemlərindən biri olmuşdur. Aclıq səviyyəsinin, aşağı təminatlı ailələrin sayının minə endirilməsi ən əsas məqsəddir. Bu barədə aparılan tədbirlərdən biri kimi Respublikanın Prezidentinin 20.02.2003 tarixli "Respublikada iqtisadi inkişaf, Proqramı"nı göstərə bilərik. Bu proqramın realllaşdırılması sonunda (2005) yoxsulluq leveli 47%-dən 29%-ə endirilmişdir, artım davam edərək (2007) 16%-ə enmişdir. Növbəti il bu nəticə 13,2% olmuşdur, son 8 ildə yoxsul əhalinin sayı 5.2% azalmışdır. (http://www.e-qanun.az/framework/27284)

Yeni is yerləri fəaliyyətə başlamış, sahibkarlığa dəstək və inkişafı naminə müxtəlif tədbirlər hazırlanmış, işsizliyin azaldılması yolunda məşğulluq fond və qurumları fəaliyyətə başlamış, əmək yarmarkaları təşkil olunmuşdur. Tədbirlər nəticəsində yoxsulluğun azaldılmasına nail olunmuşdur. Ölkə məvacib və köçürmələrin artımı, iqtisadiyyatın müasirləşməsinə yönəlmiş islahatları reallaşdırmaq üçün külli miqdarda yatırım həyata keçirmişdir.

Aparılan tədbirlərə baxmayaraq məşğulluq səviyyəsindəki statistik göstəricilər nəticənin hələdə ürəkaçan olmadığını göstərir. Ölkəmiz yüksək karbohidrogen (90%-dən çox) ixracatından asılıdır və ÜDM göstəricilərinə məhz bununla nail olunur, buda işləyən əhalinin yalnız 7%-ni təşkil edır. Bunu minimuma çatdırmaq, aşağı gəlirli təbəqənin sayının azaldılması, yüksək və orta gəlirli dövlət kimi formalaşmaq əsas məqsədlərdəndir.

Butün məqsədlər üçün hədəflər nəzərdən keçirilməlidi: Aclıq çəkən yoxsul insanların sayını yarıya qədər azaltmaq; hamı üçün rasional, faydalı iş şəraitinin, məşğulluğun təmini; gündəlik gəliri minimum səviyyədə (1dolardan aşağı) olan insanları yarıya endirmək. (“Azərbaycan gəncləri 2018” Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: 2018)

Məşğulluq Strategiyasının icrası nəticəsində müsbət irəliləyişlər baş vermiş, işsizlik leveli və yoxsulluq səviyyəsi 5 %-dək azalmış, gəlirlər 5 dəfə, min. maaş 3.5 dəfə, orta nominal maaş 3,8 dəfə artmışdır. (president.az) Ölkədə məşğulluq səviyyəsinin tənzimlənməsi məqsədi ilə Prezident İ. Əliyev “2019-2030 illər üzrə Az. Resp. məşgulluq strategiyasını təsdiqləyib.

Amma, təhsildəki mənfi cəhətlərə baxsaq görmək olarki test zamanı oxu üzrə göstəricilər aşağıdır, 80% yeniyetmə isə minimum oxu vərdişlərinə yiyələnməmişlər, universitetlərə qəbul səviyyəsi ürəkaçan deyil. (https://www.stat.gov.az/source/demoqraphy/)

1) İkinci məqsədə nail olmaqda hədəf bütün vətəndaşların tam ibtidai təhsil almağının təminidir. Onda ibtidai təhsilə qəbul faizi, savadlılıq dərəcəsi, aşağı təhsilli şagirdlərin sayı və s. kimi məsələlər araşdırılır. Ölkəmizdə təhsil səviyyəsi qənaətbəxş səviyyədədir, lakin universitet və məktəbəqədər təhsil sektorlarında digər yuxarı və orta gəlirli ölkələrdən geri qalıb. Azərbaycan tələbələri məntiqi fənnlər, riyaziyyat üzrə İEÖ-lə eyni göstəricilərə malikdir və test göstəricilərində sinif fərqi yox səviyyəsindədir.

**Qrafik 1.Törətdiyi cinayətlərə görə məhkum olunanlar (min nəfər)**




**Mənbə:** AR Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/gender/

Hökumət bu çətinliklərdən qurtulmaq üçün tədbırlər (təhsil ocaqlarının artırılması; tədris şəraitin yüksəldilməsi; pulsuz vəsaitlərlə təmin və s.) həyata keçirir.

**Cədvəl 2.2017-ci il üzrə ölüm səbəbləri.**

| 2017-ci il ərzində ölümün səbəbləri | Nəfərlə | | Əhalinin hər yüz min nəfərinə | |
|---|---|---|---|---|
| | q | k | q | k |
| İnfeksion və parazit xəstəliklər | 252.5 | 561.8 | 5.30 | 11.57 |
| Qan dövranı problemləri | 16732.1 | 16930.9 | 342.8 | 349 |
| Tənəffüs orqanları ilə bağlı | 894.6 | 944.7 | 18.32 | 19 |
| Həzm s.problemləri | 1036.5 | 1435.8 | 21.32 | 29.7 |
| Travmalar, zəhərlənmə hadisələri | 690.1 | 2079.3 | 14.12 | 43 |
| Savayı xəstəliklər | 3274.6 | 3610.5 | 67.11 | 74.33 |
| Bütün səbəblərdən ölənlər (cəmi) | 26681 | 30430 | 548 | 625 |

**Mənbə:** AR DSK, https://www.stat.gov.az/source/gender/

Təhsil haqqında Az. Respublikasının 19.06.2009 tarixli qanunu ilə bu sahələrdə irəliləyişə zəmin yaratmışdır

3) Üçüncü məqsəd kişi qadın arasında fərqin, bir sözlə gender bərabərsizliyinin aradan götürülməsidır. Bu məqsədlə 2006-cil 10 oktyabrda qanun qəbul olunmuşdur. Qanunun məqsədi cinsi fərqlərə görə ayrı-seçkiliklərin mövcud olan formalarını aradan qaldırmaq və qadınlara, kişilərə həyatın konkret sahələrində eyni şəraitlər təmin etməkdən ibarətdir. (http://www.e-qanun.az/framework/12424)

Statistikaya görə ali təhsil sektorunda cins fərqi minimum səviyyədədir. Lakin sonrakı təhsil mərhələsində qadınların payı aşağıdır.

Həmçinin iş mühitində də qadın ayrı-seçkiliyinə çox rast gəlinir, onlar əsasən aşağı gəlirli, yüngül işlərə cəlb olunurlar və vəzifə artımı baş verdikcə qadınların payı azalır. Qadınların seçkili yüksək statuslarda seçimləri məhduddur. Misal üçün müdir vəzifəsinə nəzər salsaq qadınlar kişilərdən 10 dəfələrlə azdır. Son 4-5 ildə isə yüksək vəzifələrdə qadınların sayının artmasında yüngül artım (2%) baş vermişdir.

4) Digər məqsəd körpə və uşaq təlafatının, ölümünün minimum səviyyədə azaldılmasıdır.

Uşaq ölüm hallarında (2002-2011) təxminən 20% azalma müşahidə edilməsi ilə son zamanlar davamlı irəliləyiş əldə olunmuşdur. Bu baxmayaraq, Azərbaycan İE ölkələrin orta göstəricisindən geri qalır. Doğum zamanı ölüm səviyyəsi yüksəkdir. Buna səbəb səhiyyə işçilərinin bacarıqsızlığı, yetərli şəraitin olmaması, sağlamlıq problemləri, həmçinin ishal və tənəffüs xəstəlikləri, yetərsiz qidalanma və s. daxildir.

Bunun qarşıalınmasına görə səhiyyədə əsaslı tədbirlər görülür və görülməkdə davam edilir. Tibb heyətinin bacarıq, bilik səviyyəsinin yüksəldilməsi, xəstəxana şəraitinin müasir standartlara cavab verilməsi, texnologiyanın üstünlüklərindən istifadə əsas şərtlərdəndir. (www.economy.gov.az – 2018)

5) Beşinci məqsəd ana ölüm hallarının say nisbətini azaltmaqdır. Bu məqsədlə ali təhsilli tibb işçilərinin birbaşa iştirakı etməsi ilə keçirilən doğuşların sayını artırmaq,təcrübəli şəraitdə doğuşun reallaşdırılması, erkən hamiləlik, doğum öncəsi məsləhətlərin alınması və s. kimi tədbirlərin görülməsi labüddür.

Məlumatlara əsasən deyərik ki, ölkəmizdə ana ölümündə hər yüz min doğum halında son 8 ildə yarıya qədər azalma müşahidə edilmişdir. (1990-2008). Müəyyən illərdə illik 3%-ə yaxın azalma müşahidə olunub.

Ananın ölüm hallarının minimuma endirilməsi üçün əsas şərtlərə doğuş öncəsi hazırlıq mərhələsinin düzgün təşkili, qurğuların istifadəsi, professional heyətin təşkili və artırılması, ixtisasartırma tədbirlərinin aparılması aiddir. Ölkədə doğum zamanı lazımı vasitələrlə təminat səviyyəsi 78-89%-dir, lakin bu İEÖ göstəricilərindən geri qalır. Digər mühüm problem isə ev şəraitindəki doğum hallarıdır. Hətta bəzi ərazilərdə bu pay 40-50%-ə qədərdir.

6) Müxtəlif xəstəliklərə qarşı mübarizə əsas problem olaraq davam edir. Dünyada günü-gündən artan xəstəliklər, yoluxucu viruslar bu məsələdə ehtiyatlı olmağı tələb edir. Ölkəmizdə cinsi yönlü İnsan İmmunçatışmazlığı Virusu mövcuddur və bu göstərici daha da artmağa davam edir, əsasən də narkotik vasitələrin tətbiqi ilə yayılır. Çox təəssüf ki, respublikada bu virusdan qorunma səviyyəsi zəifdir. Həmçinin aşağı səviyyədə, qeyri-müntəzəm müalicə, xidmət səviyyəsi, gec diaqnoz qoyulması problemi ciddi şəklə gətirib çıxarır.

Viruslarla mübarizə məqsədilə vahid əlaqələndirmə orqanları, mexanizmləri yaradılır. Malyariyaya xəstəliyində azalma olmuş, 7il əvvəlki məlumata görə bəhs edilən illər  ərzində 8 malyariya halı aşkar olunmuşdur.

7) Ekologiyanin qorunmasi, fasiləsizliyinin təmini xeyli ölkələrin iqtisadi yönümlü inkişafinın, dayanıqlılığının şərtidir. Ölkənin vacib sərvəti onun təbii ehtiyatları, ekoloji resursları, bioloji, hidroloji sərvətləridir və onlardan qənaətlə istifadə ölkənin əsas inkişaf şərtidir. Diqqət edilməsi vacib olan məsələr bunlardır:

-Ekoloji resursların qənaətli istifadəsi və onun itkisini minimuma endirmək

-Biomüxtəlifliyə təkan verərək, onun itkisin qarşısını almaq

-İçməli su, sanitar şərait ilə təmin edilmiş insanların sayını artırmaq

-Bioloji ehtiyatların artırılması və qorunması.

**Qrafik 2.2018-ci il yanvar ayının 1-i vəziyyətinə əhalinin cins və yaş tərkibi(ayı, qadın və kişilərin bütün əhaliyə nisbəti, faizlə)**




**Mənbə:** Dövlət Statistika Komitəsi**,** https://www.stat.gov.az/source/gender/

Ölkəmiz qeydolunanlara əsasən beynəlxalq müqavilələrə üzv olmaqla, mühüm qərar, proqramlar qəbul etmişdir. Biomüxtəlifliyi qorumaq yolunda ciddi irəliləyişlər olmuş, qorunan ərazilərin payı on ildə 2dəfə artmış, meşə örtüklü ərazilərın sahəsi çoxalmışdır.

Bütün müsbət cəhətlərə baxmayaraq ölkə ərazisindəki eroziya və şoranlaşma ekoloji çətinlik yaradır, məhsuldarlığa ciddi zərər vurur. Eyni zamanda içməli su mənbələrinin sayı artsa da, digər yüksək və orta gəlirli ölkələrlə müqayisədə aşağıdır. Karbon qazının adambaşı həcmi də orta gəlirli ölkələrin orta göstəriciləri ilə eynidir, lakin artıma rast gəlinmişdir.

8) İnkişafa çatmaq üçün qlobal inteqrasiya, beynəlxalq tərəfdaşlığı təmin və inkişaf etdirmək cari dövrdə iqtisadi inkişaf şərtlərindəndir. Bu cəhətdən ölkələr hər biri müvafiq məqsəd strategiya qurmalı və buna əsasən öz hədəflərini reallaşdırmalıdır.

Bu məsələdə ölkə əsasən aşağıdakı məsələləri araşdırıb, təhlil etməlidir:

- Düzgün maliyyə sistemi qurmaq və onu inkişaf etdirmək, açıq ticarətdə ayrıseçkiliyə yol verməmək. Yəni inkişaf etmiş yaxud İOÖ-in arasında rahat çıxış əldə edilməlidir, lakin az inkişaf edən ölkələr çox inkişaf edən ölkə bazarlarına daha rahat çıxış təmin edirlər.

- İnkişaf cəhətdən zəif olan ölkərin ehtiyaclarını diqqətə almaq

- İE olan, imkanları məhdud dövlətlərin ehtiyaclarını hədəfləmək

- İE olan zəif ölkələrin borc problemlərinə nəzər yetirmək

- Zəif, yoxsul və orta inkişaflı ölkələrdə əsas, ilkin yardım ləvazimat və dərman məhsullarının rahatlıqla əldə olunmasını təmin etmək

-Yeni texnologiyalardan, həmçinin kommunikasiya, informasiya texnologiyalarından faydalanmaq imkanı yaratmaq. (“Azərbaycan gəncləri 2018” Statistik məcmuə,statistik məlumatlar)

# FƏSIL III. MÜASİR DÖVRDƏ MİLLİ İQTİSADİ MARAQLARIN TƏMİN EDİLMƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏMƏ VASİTƏLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Qlobal iqtisadi tənzimləmə vasitələrindən istifadə imkanları

Təsərrüfat sisteminin şaxələnməsi, dünya iqtisadiyyatı sahəsində ölkələrin qarşılıqlı güclənməsi, qlobal problemlərin kəskinləşməsi beynəlxalq iqtisadi məsələlərin məqsədyönlü şəkildə tənzimlənməsini, çoxtərəfli dövlətlərarası tənzimlənməni zərurətə çevirmişdir. Dövlətlərarası beynəlxalq münasibətlərin tənzimlənməsi məsələsi fərqli ölkələrin könüllü şəkildə öz üzərlərinə götürdüyü öhdəliklərin həmçinin dünya təsərrüfat sferasında davranış qaydalarının ümumiləşmiş toplusudur.

Məlumdur ki, iqtisadiyyat daimi olaraq təkmilləşən bir prosesdir. Hər hansı iqtisadi formatdan başqasına keçərkən isə hərəkətverici qüvvənin dəyişməsi hadisəsi də baş verir. Sadə olan bir ibtidai cəmiyyətdən inkişaf etmiş cəmiyyətə kimi demək olar ki, bütün insanlar sosial rifah üzərində daim mübarizədə olmuşlar. Bu əsas amil, bir çox dövlətlər tərəfindən siyasi sistemlərdə nəzərə alınmaqla istehsal münasibətlərində onun xarakterini müəyyən edir. Rəqabət - iqtisadiyyatın inkişaf etməsinin daha bir əsas amili. Texnologiyanın inkişaf etməsilə əlaqədar olaraq kəskin hal almış olur. Rəqabətin davamlı olması sayəsində isə texnologiyanın inkişafi daha da intensivləşmiş hal alır. İEÖ işçilərin əksəriyyətinin gəliri ilkin tələbat mallarının alınması və tələblərinin tam ödənilməsi ilə bərabər hətta yığıma vəsait qoymağa da imkan verir. Əlavə vəsaitlər hesabına daha çox insanlar təhsil alır və bu nəticə etibarilə inkişafa  köməklik göstərmiş olur. Sürətli Sürətli iqtisadi inkişaf rəqabətin artmasına səbəb olduğuna görə günümüzdə rəqabətli mübarizədə qalib gəlmək üçün yollarının axtarışına və yeni metodların hazırlanmasına çalışılır. Bu isə öz növbəsində yeni strategiyanın və idarəemə qərarlarırının hazırlanmasını zəruri edir.

Bəhs edilən siyasətin bir çox subyektlərini göstərmək qəbul edilmişdir. Onlara aiddir: öz tərkibinə regional, yerli, institusional törəmələri daxil edən dövlət, həmçinin qeyri – hökumət birlikləri və təşkilatları. Bu subyektlərin fəaliyyəti zamanı

fərqlər meydana çıxır. Hökumət iqtisadi və yaxud siyasi hakimiyyətə sahibdir. İttifaqlar, birliklər isə təkcə öz iqtisadi güclərinə güvənə bilərlər. Onlar siyasi gücə sahib deyillər, amma informasiya sisteminin (KİV) və lobbizm institutu vasitəsilə ona aktiv təsir edə bilirlər.

Dövlətə hakimiyyət o səbəbdən verilmişdir ki, o müxtəlif qrupların maraqlarını öz aralarında birləşdirə bilsin, müəyyən məqsədlərdə fəal olmağa sövq etsin.

Dövlətin vəzifələrinin toplusu onun strukturu arasında bölüşdürülmüşdür. Parlament səviyyəsində siyasətin əsas istiqamətlərinin əsaslı təriflənməsi və müzakirəsi baş verir. İcraedici hakimiyyət – hökumət onun irəli sürülməsinə cavab verir. Bu da institutsional orqanlara siyasətin gerçəkləşdirilməsi üzrə hüquq (məqsəd və səlahiyyət) vermiş olur.

Vəzifələrin bölüşdürülməsi xarakteri dövlətin təşkilati – strukturu tipi ilə əlaqəlidir. Aydındır ki, o federal, həmçinin mərkəzləşmiş quruluşa malik olur. 1-ci halda misal olaraq Almaniya, Rusiya, İsveçrə, 2-cidə isə Fransanı göstərmək olar. Federasiyada iqtisadi siyasətin 3 növ subyektini ayırmaq qəbul edilmişdir:

- federal subyekt;
- regional subyekt;
- yerli subyekt

Qərbin hüquq sistemində dövlətə yaxın olan daha bir neçə struktur vardır. Onlara ictimai – hüquqi statusa malik olan institutlar aid edilir. Onlara müstəqil təşkilatlar (xüsusi firmalar) deyillər. Eyni anda onlar dövlət idarəetmə aparatının tərkibinə də aid edilmirlər. Onlara dövlətin idarəetmə strukturlarının fəaliyyət çərçivəsindən çıxarılmış müəyyən olunmuş idarəetmə məsələləri həvalə edilir. Məs. Almaniyada bu cür institutların siyahısına ümumi ağırlıq yükünün tarazlaşdırılması fondu, yerli xəstəxana kassası sistemi, sığorta üzrə regional idarəetmələr daxildir.

Bu cür institutsional təşkilatlar iqtisadiyyatda aralıq, ortancıl müvqedə dayanırlar. Bu kimi təşkilatlar xüsusi iqtisadiyyat dövlətin son dərəcədə müstəqim və aktiv tənzimləmə roluna qarşı istiqamətləndiyi üçün yaradılmışlar. Bu forma razılaşdırılmış təşkilati variantdır. Tənzimlənmə təcrübəsində o nisbətən kiçik rol oynayır.

Iqtisadi siyasətin subyektləri arasında dövlətüstü xarakterli institutlar da müəyyən yerə malikdirlər. Onların fəaliyyəti dövlətlərarası razılaşma sistemi ilə əlaqədardır. İqtisadi siyasətin dövlət subyektlərinə diqqət ifadə etmiş müxtəlif qrup birliklər aiddir: sahibkarlar ittifaqı, ittifaqlar, kartellər, kooperativlər. İqtisadi siyasətin sosial aspektlərinin məişətə tətbiq edilməsində müəyyən rolu həmçinin dini və mədəni təşkilatlar da oynayır. İqtisadi siyasətin həyata keçirilməsində sahibkarlar ittifaqının rolu demək olar dövlətin rolu qədər önəmlidir. Bu rolun əsası – qrup təzyiqinin reallaşması imkanıdır. Əlbəttə, şəxsi qrupların maraqlarının istiqamətləri öz fəaliyyətinin ilkin planına cəmiyyətin rifahını qoyan dövlətin məqsədli istiqaməti (orientasiyası) eynilik təşkil etməyə bilər. İttifaqlar və dövlət arasında öz səlahiyyət imkanlarının göstərilməsi uğrunda tez – tez açıq müharibə yaranir.

Bu mübarizə zamanı dövlət heç də hər zaman üstün mövqedə dayanmır. Sahibkarlar birliyi (qismən də Həmkarlar ittifaqları) reklam, ictimai əlaqələr sahəsində olan bacarıqlarına görə müəyyən imtiyazlara malikdirlər. Onlar seçim sisteminə təsir edə blirlər. Ara-sıra parlament üzvlərinə təsir edir, hətta bəzən özləri dövlət hakimiyyəti orqanında nümayəndəliyə can atırlar. Bununla birgə bəhs edilən siyasətin gedişinə "daxildən" təsir etməyə imkan yaranır. Rəsmi birliklər Parlament çərçivəsində öz yanaşmalarını xalq təsərrüfatı maraqlarının ən yüksək forması kimi nümayiş etdirmək üçün səy göstərirlər. Bu xüsusi iqtisadi planların həyata keçirilməsinin siyasi metodudur. Buna görə də dövlətə hər zaman cəmiyyətdə bütün qrupların maraqlarının məcmusunu diqqətə almaq lazım olduğunu hesab edirik.

Dövlət institutlarından və eləcə də siyasətin tətbiqində bilavasitə iştirak edən iqtisadi birliklərdən başqa, iqtisadi siyasət sahəsində qəbul edilmiş qərarlara birbaşa olaraq təsir edə bilən qrup və institutları da göstərməli. Burada söhbət partiyalardan, siyasi təşkilatlardan, iqtisadiyyatda nüfuzlu simalardan, KİV, siyasi xadimlərdən, ekspert məsləhətlərindən və ictimai fikirdən gedir. Iqtisadi siyasətin xarakterinə bu subyektlərin təsir dərəcəsi siyasi sistemin strukturundan, tipindən, sabitliyindən, ölkədəki vəziyyətdən asılıdır. Dünya üzrə təsərrüfatın müharibədən sonrakı illər zamanı inkişafi bildirir ki, iqtisadi baxımdan tənzimləmə prosesinin formalaşması həmçinin inkişafının ən vacib təkanverici amilləri aşağıdakılar olmuşdur:

1. Gömrük ödənişlərinin aşağı endirilməsı yolu vasitəsi ilə ticarətin liberallaşdırılmasının vacibliyi: II dünya müharibələri nəticəsində Avropanın dağılmış iqtisadiyyatı sürətli şəkildə bərpa məsələsini tələb edirdi Xarici ticarət əlaqəsinin aktivləşməsini, kapitalın sərbəst hərəkətini,beynəlxalq formalı hesablaşma sisteminin qaydaya düşməsini nəzərdə tuturdu. Həmin bu amillə əksər ölkələr sonradan anlaşıldı ki, azad ticarət dinamik artım prosesinə yol açır. Əmək məhsuldarlığının çoxalmasını stimullaşdırır, dünya üzrə texnologiyanı hərəkətə gətirir və irihəcmli dünya bazarlarını bir sıra müəssisələr üçün açır.

2. imperializmin dağılması, azadlıq qazanan dövlətlərin təminatı: bu ölkələr dünya təsərrüfat əlaqəsinin təkrar qurulması, yeni formalı iqtisadi qaydanın bərqərar olunması tələbləri vasitəsi ilə çıxış etməyə başladı. (1960-1970)

3. 1970- 1980 illərin ərzaq böhranları və xammal böhranları; bu böhranların neft xaric edən ölkələrilə davranışların kəskinləşməsi, onların iqtisadiyyatların strukturunun yenidənqurması sistemində birgə cəhtlərini zərurətə çevirdi.

4. dünya iqtisadiyyatın qloballaşması, ölkələrin asılılıqlarının, əlaqələrinin güclənməsi iqtisadiyatın dünya təsərrüfatlarında yaranan dəyişikliklərə vərdiş olma zəruriliyi sənayecə İE ölkələrin iqtisadi siyasətinin koordinasiyasını, beynəlxalq sabitliyin, milli siyasətin zəruri uyğunluğunu təmin edəcək müqavilələrin, əməkdaşlığın və müxtəlif formaların işlənməsini tələb edirdi.

5. transmilli şirkətlərinin inkişafi və güclənməsi: bu kimi şirkətlərin fəaliyyət göstərməsi sərhəddən kənara çixir. Maraqları həm aid olduqları ölkələrin, həmçinin də fəaliyyət göstərdikləri ölkənin tərəqqi meylləri ilə ziddiyyət təşkil edir. Buda onların fəaliyyət metdolarının və tənzimlənmələrinin tapılması məsələsini zəruriləşdirib. Nəticə etibarilə, BMT-də transmilli mərkəzlər açılmışdır.

6. regional iqtisadi inteqqrasiya sistemlərinin müntəzəm inkişafi və tənzimləyici regional strukturların əmələ gəlməsi yolu vasitəsilə beynəlxalq münasibətlərin dövlətlərarası tənzimlənmə məzmununu dərinləşdirdi. Forma və çeşidini artırdı. Bu xüsusilə özünü Avropa məkanında göstərdi.

7. dünya sosial, dünya kapitalist təsərrüfatlarının 45 illik qarşıdurması, dövlətlərarası iqtisadi münasibətlərin tənzimlənməsinin funksiya göstərmə, formalaşma proseslərinə düzəlişlərin edilməsinə zəmin yaratdı.

8. qloballaşmış problemlərin kəskinləməsi məs. ətraf aləmin qorunması,ərzaq xammal, və s. problemlər BMT-in FAO, AE , Beynəlxalq Agentliyi (MAQATE) və s. kimi təşkilatların, dövlətlərarası formalaşma sisteminin elementlərinin meyana gəlməsinin səbəbi olmuşdur. Bir tərəfdən də siyasi ad daxilində çox zaman hakimiyyətin qorunması və saxlanması sahəsi üzrə məsələdə çıxış edir. Ona görədə siyasətin rasianal, baxımdan əsaslandırılaraq alternativlərin daxilində daha yaxşının seçilməsi və q/rasionala əsaslanaraq hakimiyyəti qoruyub,saxlamaq, şəxsi keyfiyyətlərin göstəriciləri, bilik səviyyəsinin, bəzi hallar siyasi qüvvələrin göstəriyi təsir altında yaranması sözügedən siyasətin metodoloji, nəzərı əsasının təhlil edilməsini vacib hesab edır.

İqtisadi siyasətin alətləri qismində inzibati, iqtisadi və institutsional alətlər rol oynayırlar. Əsas etibari ilə iqtisadi alətlərə, valyuta, gəlirlərin tənzimlənməsi, xarici ticarətin tənzimlənməsi mexanizmləri aiddir.

Müasir dövrdə proteksionizm dövlətin iqtisadi yönümlü siyasətinin milli istehsalat proseslərinin dəstəklənməsinə yönələn addımdır. Bu, ticari-inzibati, ticari və yaxud məhdudiyyətlərin tətbiq olunması vasitəsi yolu ilə reala keçir. Bunlardan hamısı xarici məhsulların daxili bazara yönəldilməsinin həcmini azaldır yaxud da qarşısını alır. Milli istehsalla müqayisədə rəqabətə qarşı davamlılıq xeyli aşağı düşür. Proteksionizm müxtəlif ölkələrdə iqtisadiyyatın məhsullarının ixracatının maliyyələşdirilməsi kimi məlumdur.

Dünya üzrə il ərzində 257 proteksionist tədbir həyata keçirilib, daha 56-sı isə partnyor ölkələrin maraqlarının pozulması kimi qiymətləndirilib. Ticarətin liberallaşdırılmasını şərtləndirən tədbirlər 6 dəfə az qəbul olunub. Bundan başqa 2010-cu ildə əlavə olaraq 188 proteksionist tədbirlərin görülməsi planlaşdırılıb. Proteksionizmin əsas “qurbanı” Çindir. Çin məhsullarından qorunmaq üçün müxtəlif ölkələr 146 tədbir həyata keçirib. İqtisadiyyatın proteksionist tədbirlərindən ən çox zərər vurulan sektoru metallurqiya və kimyadır.

Azərbaycan hökuməti də iqtisadiyyatı qorumaq üçün proteksionizm siyasəti yürüdür. 2011cı ilin 10-cu ayında göstərilən sahə üzrə yeni siyasət elan olunub. Həmin siyasətin nədən təşkilini sual etsək?

İdxal zamanı yaranan bəzi mövcud məhdudiyyətlər fərqli iqtisadiyyatda dotasiyalar və subsidiyalarla yanaşı, dövlət sifarişləri həyata keçirildikdə üstünlük yerli istehsalçılara məhsulun keyfiyyətli olması şərtini qoyaraq veriləcək. Indi dövlət sifarişinin həyata keçirilməsində xidmət və avadanlıqların çox hissəsi xarici mənbələrə aiddir. Bu halda dövlət sifarişlərinin yerli istehsalçılara yönəldilməsi dövlət proteksionizminin gücləndirilməsini göstərən mühüm amildir.

ÜTT dünya ticarətinin tənzimlənməsində əsas olan universal bir təşkilatdır. Onun təsis edilməsi beynəlxalq ticarətdə mövcud olan zidiyyətlərdən yaranmışdir. Beynəlxalq tıcarət münasibətlərinin tənzimlənməsi zərurəti dünya iqtisadi böhran zamanı yaranmışdır. Sözü gedən dövrdə dünya çapında səviyyəsində ticarət əlaqələrini tənzim edən beynəlxalq təşkilatın mövcud olmaması səbəbi beynəlxalq ticarətin xüsusi həcminin 50 % aşağı enməsinə getirib çıxarmışdır. Artıq Amerika ölkəsinin Bretton-Vuds şəhərində keçirilən beynəlxalq konfrans zamanı D.B. və Beynalxalq Valyuta Fondu (BVF) kimi çox böyük beynəlxalq maliyyə institutlarının təsis edildiyi zaman dünya ticarəti əlaqə və münasibətlərini tənzimləyən bir təsisat da yaradılmalı idi. Amma təşkilatın təsis edilməsi konfrans iştirakçıları tərəfindən razılıq əldə olunmaması səbəbindən yaradılmadı və yalnız 1947-cı ildə dünyanın 23 dövlətinin razılığı ilə TTBS qəbul edildi. 1 yanvar 1948-ci il bu saziş qüvvəyə mindi. TTBS Beynəlxalq Ticarət Təşkilatının nizamnaməsinin ratifikasiyası prosesi başa çatana qədər fəaliyyət göstərməli və sonra onun bir parçasına çevrilməli idi. Ancaq, bir sıra dövlət və Avropa İqtısadi Birliyi parlamentləri TTBS-in nizamnaməsini ratifikasiya etmədi. Buna səbəb səslərin paylanması prinsipi idi. Belə ki, Amerika hesab edirdi ki, istənilən dövlətin dünya ticarətində payına uyğun səs çoxluğu olmalıdır. Avropa iqtisadi Birliyi dövlətləri isə hər ölkənin bir səsi prinsipini müdafiə edirdi. (İ.A.Kərimli,2006)

AR-nın ÜTT-nun üzvü olması fikrini əks etdirən müraciət 23.06.1997 tarixində ÜTT-ün Katibliyinə təqdim olunmuşdur. Respublikanın ÜTT-ün üzvü olması

prosesinin sürətləndirilməsində çox önəmli məsələlərdən olan hərtərəflii danışıq formaları davam edir. 16.07.1997 tarixində ölkə üzrə ÜTT-ün katibliyində yaradılmış olan İşçi Qrupunun birinci iclası Cenevrədə təşkil edilmişdir. 2004-dən başlayaraq bu iclaslar ardıcıl şəkildə keçirilir. İlk dəfə (2008) 1il ərzində İşçi Qrupunun 2 iclası keçirilmişdir. 06.05.2008 və 11.12.2008 tarixləri arasında Cenevrədə İşçi beşinci və altıncı iclasları olmuşdur. Beşinci iclas sonrasında ölkə üzrə ilk ümumiləşdirici sənədin yəni Faktlar İcmalının hazırlanması üçün yeni qərarlar qəbul olunmuşdur. ÜTT katibliyinin tərəfindən bu sənəd hazırlanaraq ölkəyə təqdim edilmişdir. Aidiyyəti formalar tərəfindən sənədlə bağlı təkliflər, rəylər irəli sürülmüşdü. Sənətin növbəti variantı Danışıqlar Qrupunun üzvlərinə rəy bildirilməsi üçün paylanılmış və İşçi Qrupunun onuncu iclasında bir daha müzakirə edilmişdir. Cenevrədə (2012) İşçi Qrupun 2 iclası keçirilmişdir. Respublikanın (ÜTT) üzvlüyü vasitəsilə bağlı sonuncu, iclas (28.07.2017) Cenevrədə keçirilib.

## 3.2. Dövlət tənzimləmə vasitələrinin təkmilləşdirilməsinin prioritetləri

Iqtisadiyatın transformasiyasının ümumiləşmiş çərçivədə 5 növə bölmək mümkündür:

- Liberallaşdırma,
- Stabilləşdirmə
- Özəlləşmə
- Iqtisadi instutların formalaşdırılması
- Strukturun yenidənqurulması.

Liberallaşma komitet sisteminin qadağanlarını və məhdudiyyətlərini aradan qaldırır və iqtisadi agentlərə azadlıq verir. Lakin azadlıq iqtisadi subyektlərin qaydaları olmadan fəaliyyətini nəzərdə tutmur. Bir bazar iqtisadiyyatının fəaliyyət mexanizmi işə salınmalı, bazar münasibətlərinə uyğun qanunvericilik sistemi (özəl mülkiyyət hüquqlarının qorunması, rəqabət mühiti, antitrust, əmək qanunvericiliyi və s. Təmin etmək üçün qanunlar) yerləşdirilməlidir, bazar institutlarının qurulması zəruridir (institusional dəyişiklik mülkiyyət dəyişikliyini əhatə edir) yeni sahibkarlıq subyektlərinin - kommersiya banklarının, əmtəə və fond birjalarının, investisiya

fondlarının yaranması c). Beləliklə, institusional dəyişikliklər iqtisadi islahatların əsasını təşkil edir, bunlar olmadan nə iqtisadi liberallaşma, nə də maliyyə sabitliyi mümkün deyildir.

İqtisadiyyatın sabitləşdirilməsi pozulmuş iqtisadi sistemin stabil bir dövlətə gətirilməsi prosesidir. Bu, ümumiyyətlə, istehsalın və məşğulluğun sabit artımı, əhalinin təbii artımına, habelə dəyişməz qiymətlərə uyğun gəlir. Bu komponentlərdən biri və ya bir neçəsi bir səbəbdən və ya digər səbəbdən pozulduqda (kəskin düşmə və ya əksinə, istehsalın həddindən artıq sürətlə artması, işsizlik və ya inflyasiyanın artması) iqtisadiyyatın sabitləşdirilməsinə ehtiyac var.

İqtisadi sabitləşdirici, xərcləmə üçün istifadə olunan gəlir məbləğlərinə (birdəfəlik gəlir) qarşılıqlı təsir göstərərək iş dövründə dəyişiklikləri azaltmağa xidmət edən iqtisadiyyatdakı müəssisələrin və təcrübələrin hər hansı biri. Ən əhəmiyyətli avtomatik stabilizatorlar arasında işsizlik kompensasiyası və digər transfer ödəniş proqramları, təsərrüfat qiymətləri dəstəkləri, ailə və korporativ qə-naət nəzərdə tutulur

İqtisadi qeyri-sabitliyin (istehsal, istihdam və qiymətlərin dəyişməsi daxil olmaqla) problemlərinin araşdırılmasının əsas məqsədi sabitləşmə siyasətinin təməlini təmin etməkdir, yəni iqtisadiyyatın fəaliyyətini yaxşılaşdırmaq üçün maliyyə və pul siyasətinin sistemli istifadə edilməsi. Buna görə əsas vəzifələr qiymətlərin, istehsalın və məşğulluğun səviyyəsinin necə müəyyənləşdirildiyini və daha çox tətbiq olunan səviyyədə bu dəyişkənlərin dəyişməsinin proqnozlarını təqdim etməkdir. Bu, stabilləşmə siyasətinə əsaslanan proqnozlardır.

Özəlləşdirmə, dövlət xidmətlərinin və ya aktivlərinin özəl sektora ötürülməsi. Dövlət mülkiyyətindəki aktivlər xüsusi sahiblərə satıla bilər və ya özəl və ictimai müəssisələr arasında rəqabətə qanuni məhdudiyyətlər qaldırıla bilər. Hökumət tərəfindən əvvəlcədən təmin edilən xidmətlər müqaviləli ola bilər. Məqsəd tez-tez hökumətin səmərəliliyinin artırılmasıdır; həyata keçirilməsi hökumət gəlirlərinə müsbət və ya mənfi təsir göstərə bilər. Özəlləşdirmə milliləşdirmə ziddiyyətidir, əsas sənaye sahələrindən gəlirləri saxlamaq üçün hökumətlər tərəfindən yönəldilən bir siyasətdir, xüsusilə başqa bir şəkildə xarici maraqlarla idarə oluna bilər.

Özəlləşdirmə "bir neçə fərqli əməliyyat növünü əhatə edən çətirli bir müddətdir. Ümumilikdə, hökumətdən özəl sektora olan bir funksiya üçün məsuliyyətin bir hissəsini və ya hamısını dəyişdirmək deməkdir. Müddəti ən çox yayılmışdır, dövlətə məxsus müəssisənin satışı və ya uzunmüddətli kirayəyə verilməsi, özəl investorlara verilir. Lakin özəlləşdirmənin başqa əsas forması uzunmüddətli françayzinq və ya imtiyaz verilməsidir. Bu, özəl sektorun əsas infrastruktur layihəsini maliyyələşdirdiyini, qurduğunu və fəaliyyətini davam etdirir. Üçüncü bir növ özəlləşdirmə hökuməti hökumətin ictimai işçilər tərəfindən əvvəlcədən hazırlanmış bir ictimai xidmət təqdim etmək üçün özəl bir şəxsin seçilməsini nəzərdə tutur. Özəlləşdirmənin bu forması getdikcə daha da kənarlaşdırma adlanır. (Burada müzakirə olunmayan, özəlləşmənin digər formaları, xidmətin daşınması, çekləri və birgə müəssisələri daxildir.)

İqtisadi institutlar insan qarşılıqlı təsirlərinin davamlı formalarıdır. Bunlar, iqtisadi agentlərin davranışlarını məhdudlaşdırmaq və onların arasındakı əlaqəni düzəltmək funksiyasını yerinə yetirən bir növ normalar və qaydalardır.

Bu təşkilat cəmiyyətdəki oyunun qaydalarıdır və ya daha formal şəkildə insanların qarşılıqlı təsirini formalaşdıran məhdudiyyətlərdir. Təşkilatlar bir cəmiyyət üçün sosial, siyasi və iqtisadi bir təşviq quruluşu yaradır. Təşkilatlar həm formal qanunlar (konstitusiyalar, qanunlar, mülkiyyət hüquqları) və qeyri-rəsmi qaydalardır (ənənələr, əməllər, davranış qaydaları).

Müəssisələr və təşkilatlar arasında fərq var. Müəssisələr qarşılıqlı təsir göstərən bir sıra qaydalar və qanunlar olsa da, şəxslərin, təşkilatların hərəkətləri özləri institusional məhdudiyyətlərə məruz qalan korporativ aktörlerdir. Təşkilatlar təşkilatı təşkil edən şəxslərin qarşılıqlı təsirini müəyyən edən daxili struktura, institusional çərçivəyə malikdirlər. Bəzi kollektiv birliklər həm müəssisələr, həm də təşkilatlar ola bilər (firma, kilsə və ya təhsil müəssisəsi).

Müəssisələr arasındakı əlaqəni və məhsuldarlıq səmərəsini anlamaq üçün əməliyyat xərcləri konsepsiyası vacibdir. Onlar istehsalla deyil, bununla bağlı xərclərlə bağlıdır: qiymətlərlə bağlı məlumatların axtarışı, iqtisadi əməliyyatlara qarşı olan tərəflər, iqtisadi müqavilələrə giriş xərcləri, onların icrasına nəzarət və s.

İnstitusional etibarlılıq çox vacibdir, çünki o deməkdir ki, ixtisaslaşmanın artması ilə qarşılıqlı əlaqələr şəbəkəsinin davamlı genişlənməsinə baxmayaraq, fərdi biliklər üçün günümüzdən qaçılmaz olaraq daha da uzaqlaşan nəticələrə əmin ola bilərik.

Bunlara əsasən islahatlarin dəyərləndirilməsi 3 yönə istiqamətlənir.

1. iqtisadiyatin təkrar yaradılmasının ümumiləşməsi,

2. iqtisadiyatin qlobal məsələlərinin araşdırılması

3. Azərbaycanda olan iqtisadiyyatın təzələşməsinin əlverişliliyinin ortaya qoyulması.

İstənilən ölkənin təsərrüfat əlaqələrinə qovuşması dərəcəsi, xarakteri və intensivliyi keçid mərhələsində ölkənin seçmiş olduğu, elmi-texniki, iqtisadi potensialından və s əlaqəlidir

2020-ci ilə qədər ölkəmizin iqtisadiyatı öncə ətraf qüvvələrin negativ təsiri səbəbindən yaranmış olan haldan çıxarılması ölkədə inteqrasiyası nəticəsində rəqabəti artırılmasına nail olmaqdır. Strateji baxışın şərhi o ilə qədər strateji baxış sonraki mərhələ üçün qurulacaq iqtisadiyyatın təməllərinin genişlənməsinə xidmət edəcəkdir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində, həmçinin nəqliyyat–logistika dəhlizlərinin genişlənməsində mühüm rolu qorunmaqla bərabər, Yol Xəritəsindəki planda olan istiqamətlərdə irəliləməsi təmin olunacaqdır. İqtisadiyyatın şaxələndirilməsində və ixtisaslaşmanın artırılmasında əsas məqsəd, q/neft sistemində normadan çox qiymətin yaradılması əsasında gəlirlərin məbləğinin artırılması və ədalətli bölgüsünün aparılmasıdır. Son on il müddətində neftdən qazanılmış gəlirlər məşğulluğu artırıb. Bununla belə, neft sektorunda əməyin intensivliyi zəif olduğu üçün bu sektora birbaşa cəlb edilmiş işçilərin sayı ümumi işçi qüvvəsinin cəmi 1 faizini əhatə edir. Təbii ehtiyatlardan qazanılmış gəlirlər dövlət sektorunda və tikinti sahəsində məşğulluq səviyyəsini artırmışdır.

